ISPEC International Journal of Social Sciences & Humanities
E-ISSN: 2717-7262
Vol: 2, Issue: 1, 2018

# TÜRKDILLI XALQLARIN TOY MƏRASIM ƏNƏNƏSI

*dosent* **Məmmədova Məleykə Ali Qizi**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, turkeli_@hotmail.com

**Xulasa**

Mifoloji şüurda yer alan evlilik, "təbii varlıq"dan "mədəni-sosial varlıq"a bir keçiş, bir "məhdudlaşdırma" - cütləşərək təklikdən xilas olma keyfiyyəti, öz varlığını davam etdirmək cəhdi kimi dəyərləndirilir. Evlilik, təkcə "qadın və kişinin bir-biri üzərində cinsəl istifadə haqlarına sahib olmalarını təmin edən bir müqavilə nəticəsində yaranan birlikdəlik" şəklindəki "tək istiqamətli təyin etmə" deyil, eyni zamanda "soyun davamı, ictimai bütünlüyü və müqaviməti təmin etmək kimi faktorlar"larla **(6, s.9)** da bağlıdır.

## WEDDING CEREMONY TRADITION AMONG TURCIC PEOPLE

**Abstract**

In the mythological consciousness, marriage is seen as a transition from a "natural being" to a "cultural and social being", a "restriction" - the quality of getting rid of loneliness by mating, an attempt to continue their existence. Marriage is not only a "one-sided determination" in the form of "a union arising out of a contract that gives men and women the right to have sexual rights with each other," but also with factors such as "continuity, social integrity, and resistance." 6, p.9). In this study the wedding ceremonies of the Turkic people are discussed.

**Keywords: turkic community, wedding ceremenies, sociology**

Evlilik, həm də "doğumla ölüm arasında yer alan və yaşama yön verən bir anlaşma", "iki fərdin ailə quraraq nəslini davam etdirməsi", eyni zamanda "ictimai quruluşun təməlini meydana gətirməsi" anlamı"nı **(30, s.127)** verməkdədir. Daha konkret desək**,** "Sədat Veyis Örnək, evlilik təşkilatının "gərək qızın və kişinin sosiallaşma müddətinin əhəmiyyətli bir mərhələsini meydana gətirməsi, gərəksə ailələr

arasında qurulan həmrəyliyi, sosial və iqtisadi əlaqəni təyin etməsi və tənzimləməsi baxımından hər vaxt və hər yerdə əhəmiyyətli bir hadisə gözüylə" görüldüyünü ifadə edər." **(6, s.8). E**tno-mədəni oyun-tamaşaların təsnifi olaraq dəyərləndirilən bu əhəmiyyətli hadisəni - evlilik təşkilatına aid "adət və mərasimləri" üç ana başlıq və bu başlıqlar altındakı ara başlıqlarda qiymətləndirən Pertev Naili Boratava görə evlilik, "Toy əvvəli (görücülük, elçilik; söz seqmenti, şərbət, nişan; düyün oxuntusu; cehizin getməsi və sərgilənməsi; gəlin hamamı); Toy (xına gecələri, qız xınası, oğlan xınası; gəlin köçürmə; nikah; gərdək; gərdək ertəsi-duvaq-paça) və Toy sonrasından (gəlin paltarı və kürəkənlik törələri)" meydana gəlməkdədir." **(6, s.9)** Mənşəyini "qadağan meyvə" və "tanrı mərtəbəsindən qovularaq yer üzünə endirilmək"lə bağlı izahatlardan alan, ilk dönəmlərdə yalnız birliklər olaraq diqqət çəkən, ictimai varlıq mərhələsinə daxil olduqdan sonra isə insanların düşünmə və yaşayış formaları içindəki gəlişmiş davranışlarıyla biçimlənməyə başlayan evlilik, öz praktiki şəklini evlilik təşkilatının vazkeçilməz ünsürü sayılan "Toy"larda tapır. "Toy" kəliməsi əski Türklərdə (öncələri topluluq, böyük toplantı anlamında olsa da) "bayram", "ziyafət", "düyün ziyafəti" anlamlarında da istifadə edilmişdir. Türkmən Türklərində ənənəyə görə erkək və ya qız uşağını yaşı kamala çatanda evləndirmək gərəkir. Əski zamanlarda qıza təlpəklə vurulduğu məqamda yerə yıxılmırdısa, evlənmə vaxtının gəldiyi anlaşılırmış." **(14, s.72)** Evliliyin təbiətini anlamaq üçün, onun təkcə sosioloji deyil, həm də bioloji və psixoloji tərəflərinin kültürəl təməllərinə göz atmış olursaq görərik ki, evlilik, ilk növbədə bioloji ehtiyacdır; uyğunlaşma istər. Yəni, "erkək eşq verir, cinsəllik istər, qadın da cinsəllik verir, eşq və sevgi istər". Evliliyin kültürəl fakt olduğu da ortadadır, yəni "evlilikdəki standartları mədəniyyətlər qədər insanın şəxsiyyətində olan ünsiyyət stili, problemi həll etmə tərzi, düşüncə forması təyin edər. Bu üç ünsür (sosioloji, bioloji və psixoloji – M.M), ictimai bir təşkilat olan evliliyi iki tərəfin qarşılıqlı mənfəətinə dayalı, işləyən bir-birlikdəlik halına gətirər." **(41)**

Türk xalqlarının kültüründə ayrıca yeri olan evlilik qurumunun kökləri ilə bağlı məlumatlara İslami ədəbiyyatda daha çox rast gəlinir. "...İbrani ədəbiyyatın ("hubranu": saabi dininə bağlı ədəbiyyat - M.M) təsiri altında olan İslami ədəbiyyata görə ilk evli cüt, ilk insanlar olaraq qəbul edilən Adəm ilə Həvvadır. Yenə hər iki ədəbiyyata görə insan nəsli, ilk evli cüt olan Adəm ilə Həvvanın yarısı qız, yarısı kişi olan uşaqlarının bir-birləriylə çarpazlama bir şəkildə evlənmələriylə davam edib çoxalmışdır. Hər iki ədəbiyyatda da Həvvanın hər səfərində biri kişi, digəri qız olmaq üzrə əkiz uşaqlar dünyaya

gətirdiyinə, bir qardaşla birlikdə dünyaya gələn qızın digər əkiz uşaqlardan kişi olanla evləndirildiyinə yer verilmişdir.**" (18, s.2-3).**

Türk düşüncəsində "evlənmə"nin anlamı "yuva qurdum"dur. Əskidən "evlənmə, Türklərdə bir "*qusulma, dirlik, dərim*" və ya "*tiriglig*"; yəni, "birlikdə yaşama" olaraq görülməkdəydi." **(19, s.65**) Bununla yanaşı, "evləndirmə" isə "ebledim" ("*eb" - "ev", "çadır*") olaraq işlədilir. "Uyğurlar, evlənməyə, "*qovuşmaq*" da deyirlər; evliliyin eşq və hiss istiqamətini ifadə edirdilər. Evlilik, Anadoluda eyni zamanda bir "*tüstü qurma*"dır. Yakutlar, evliliyə "sönməz bir ataş yandırma" da deyirdilər. Çünkü Türk ailə hüququnda "ocaq" müqəddəsdi. Evə gələn gəlin "evi işıqlandıran bir ataş" olaraq görülürdü." **(19, s.65**) Birlikdə yaşama olaraq görülən evlilik, əskidən "*böyük ailə", "ailə", "soy", "sülalə*", daha dəqiq desək, "*ocaq*" anlamını verməkdədir. Bu üzdən, "Türk mifologiyasında ocağın yeri ilə bağlı Ögel, "…ocaq, ailənin təməl simvoludur…" deməkdədir." **(4, s.45)** Bu mənada "ataş, ocaq qarşısında edilən dualar, ritüellər, ataşə və ocağa qurban kəsmək, salam vermək, ataş və ocaq qarşısında and içmək, onu qoruyucu görmək kimi inanışlar ataşə və ocağa duyulan hörməti, ona ətf edilən müqəddəsliyi açıqca göstərməkdədir." **(4, s.45)** Mifoloji düşüncədə "ocaq", həm də "ataş" anlamını verməkdədir. Ataş, şamanlara görə ut-anadır. Ut-ana müqəddəslik simvolu sayıldığından, şamanlar "ruhi təmizlənmə"ni ataşə ünvanlı dualar oxumaqda görmüşlər. "Bezertinov, Kamın evlilik əsnasında ut-anaya (ataş ana) istiqamətli bir duasını belə verməkdədir: "…sənin lütfünlə bu ataş yanar. Beləcə evimiz pis ruhlardan və insanların zərərlərindən qorunar. Gözəlliklər davam edər. Pisliklər tamamilə yox olsun, minlərlə il ataş həmişə yansın, heç sönməsin. Ut-ana, bizdən xeyir-dualarını əsirgəmə**…"(4, s.45)**

Əskidən boyun "siyasi, əxlaqi, dini və iqtisadi ortaqlığa sahib demokratik bir birlik" olması fikri, madəri xarakterinin üstün cəhətlərindən xəbər verir." **(32, s.98)** Bu fikrə nəzərən əskidən ailənin boy-qəbilə ilə başladıldığını, sonradan isə pədəri özəlliyə girdiyini, boyun "madəri" xarakterinin isə tarixin yetişmədiyi dönəmlərdə mümkün olduğunu irəli sürən Z.Göykalpa görə, Türk ailəsinin xarakteri hər zaman bir olmuşdur. Yəni "maternal biçim belə tamamilə anaya aid ailə tipi olmayıb, paternal, yəni iki cins hüququ arasında bərabərlik görən bir biçimdir." **(32, s.98)**. Bununla yanaşı, Yakutlarda "şamanların totemlərinin və qoruyucu ruhlarının", eyni zamanda "diğər topluluq üzvlərinin qoruyucu ruhları"nın da dişi olduğu diqqətə çəkilir. Əslində **"**Türk ailəsinin geniş deyil, nüvə ailə şəklində təşkilatlandığını söyləyən Donuk, Türklərdə kişinin ailə birliyini təmin edən nüfuz sahibi və eyni zamanda yoldaşına köməkçi, uşaqlarına sevgi və şəfqət göstərən bir adam olduğunu." **(32, s.98)** bildirməklə, pədəri

xarakterli Türk ailəsinin üstün cəhətlərini sərgiləmiş olur. Bəlli ki, ataerkil zamanında atəşə ibadət edilən tanrı, atanın tanrısı olaraq qəbul edilir. Bütövlükdə isə "əski Türklərdə ocaqda barınan, ibadət edilən tanrı, tək atanın deyil, eyni zamanda ananın da tanrısıdır. Bunlara od ata və od ana deyilərdi. Babaerkil –pədəri- ailəyə Şərq Türkləri türkün, Qərb Türkləri isə boz ocaq və ata ocağı deyərdilər." **(32, s.97)**

Atəşin yaranması Ülgenin adıyla bağlıdır. Türk mifologiyasına görə, ağ və qara rəngli daşı Göydən Yer üzünə endirən "Ülgen atəş yandırmasını insanlara öyrədərək, "bu atəş atamın qüdrətindən daşa düşmüş atəşdir" dedi. Bundan ötəridir ki, Altaylar və Yakutlarda çaxmaq daşı müqəddəsdir. Bu səbəbə ayinlərdə yandırılan atəşdə kibrit istifadə edilməz." **(46)** Kibritlə yandırılan atəşi "rus atəşi" hesab edən Sahalar və Altaylar, öz ayinlərində çaxmaq daşından faydalanmağa üstünlük vermişlər. Evlilik zamanı yeni ocağın çaxmaq daşıyla yandırılması adəti, Altaylara xasdır. "Altay Türkləri, hər şeyə küfr etsələr də, atəşə təhqir etməzlər. Atəşi su ilə söndürmək, atəşə tüpürmək, odla oynamaq qətiliklə qadağandır.**"(23, s.41)** Türk etiqadında yer alan ocağın-atəşin təmizləyici funksiyası ("hər şeyi təmizləyər, pis ruhları qovar") ilə bağlı bir çox məlumatlar yer almaqdadır. Evlilik öncəsi atəşlə fala baxmaq ritualı ilə "Manas" dastanında qarşılaşırıq: "Manasın atası Çakıp Xan, atəşə baxaraq, gəlinlərinin müqəddəratını söyləmişdir." (**23,s.41**) Məlumdur ki, Göktürk dönəmində Bizans elçiləri qəbul edilməzdən öncə, pis düşüncələrdən təmizləmək üçün onları atəşdən keçirmişlər. Bir başqa məlumat isə Başqırd və Qazax Türkləri ilə bağlıdır. Bildirilir ki, onlar "bir yağlı çınqılı alovlandırıb, xəstənin ətrafında "alas, alas" deyə dolaşdırarlar. Buna "alaslama" deyilir. Bu söz Türkiyə türkcəsinə "alazlama" şəklində keçmişdir. Mənası, atəşdə təmizlənmə deməkdir. Bu səbəblə köhnə Türk inancında atəş kultü ilə ocaq kultü bir-birindən ayrılmaz.**" (23. s.41)** "Ocaq-atəş", Türk inanc sistemində evliliyin təməl simvolu olaraq dəyərləndirildiyindən, ocağın-atəşin heç sönməməsinə çalışılar. Atəşə təzim, ocağa ehtiram, həm də buradan qaynaqlansın gərək. Təsadüfi deyil ki, "Qazax qadınları, "yeni yurda ilk girişlərində və gərək ilk uşaqları doğulduğu zaman atəş qarşısında əyilər və üzlərinə yağ parçaları sürtəllər". Altaylılarda gəlin, qayınananın evinə girdikdən sonra ocağın qarşısında yerə qədər əyilər. Bunun üzərinə qayınata və ya qohumlardan biri gəlini qaldırar və nəsihət verər." **(19, s.17**)

Şamanizmə görə qurulan hər bir ailə, bir ocaqdır və hər ocağın öz sahibi var; hər kəs öz ocağını qorumaqda görəvli sayılar. Bu səbəbdən "əski Türklərdə bir gənc evlənərkən nə arvadını öz ocağına gətirər, nə də xanımının ocağına gedərdi; iç güvənlik olmadığı kimi, iç gəlinlik də yoxdur. Oğlan, ata ocağından hissəsini alar, qız da yumuş deyilən cehizini gətirərdi. Gəlin və damad, mallarını birləşdirərək

ortaq bir ev sahibi olardılar. Bunların qurduğu yeni ailə ocağına "ağ ev" deyərdilər." **(32, s.97-98)** Xeyir yükü ilə yüklənən ağ rəng, sabitliyin davamlılığını işarələyər. "Dədə Qorqud"da ağ rəng, gözəllik etalonu olaraq qəbul edilir. Cənnət hüriləri "Quran"da ağ rənglə təsvirlənər. Evlilik zamanı ərə gedən qızın ağ libasda görünməsi, yeni qurulan ailə ocağına verilən adın "ağ ev" olması, özündə "işıq – nur – aydınlıq" simvolunu işarələr. "Platon yazırdı: "Harda qarşılıqlı münasibətlərdə işıq, nur yoxdursa, orada zülmət hökmranlıq edir..." **(43)** "Dədə Qorqud"da Bayındır xanın əmriylə "qara yerin üstünə ağ xan evi tikdir"diyi "min yerdə ipək xalıca döşət"dirdiyi **(3, s.40)** otaq, Ali Duymaza görə əslində Rəşidəddinin "Oğuznamə"si ilə "Şəcərə-i Tərakimə"də yer alan "altun ev"dir**.** Xanın "qüdrət; varlıq və sərvət göstəricisi" sayılan bu evi, özündə dünyaya hakimliyin simvolunu daşımaqdadır.

Hilal Palabıyık, "*evlilik" və "evlənmə*"nin "*ev"* deyil, "*törəmiş*" olduğuna diqqət çəkər. O, "köçəri Türk birliklərində də evlənən hər adam üçün yeni bir üy edildiyi və bunun "ev"lənmək mənasını verdiyi"ni bildirməkdədir. N.Palabıyıka görə, hər bir evlilik, "əski Türk ənənəsində hər yeni çadır, yəni "ev", yeni bir xananı təmsil edərək, yeni bir ictimai təşkilatın qurulmasını ifadə edər." **(15, s.1**) Burada "*çadır" - "yurd*" anlamını verməkdədir. Bildiyimiz kimi, "*çadır*", köçəri Türk qövmlərinin həyat tərzinin vazkeçilməz ünsürlərindən sayılır. Divarları, damı və qapıları keçə ilə örtülən bu "*çadır-yurd*"lar, əsasən yük heyvanlarıyla daşınan hərəkətli "*avtomobil çadırlar*"dan ibarətdir. Mövzu ilə bağlı yaxından ilgilənən Əhməd Gökbelin təqdimatında, "1245- 1247-ci illər arasında Dəşti Qıpçaqdan keçən P.Carpininin "Dərmə Evlər" olaraq tabir edilən çadırları bu şəkildə təsbir etdiyi nəql edilməkdədir:"Onların incə çubuqlardan hörülən və dirəklərdən edilmiş, yuxarıya doğru getdikcə daralan çadır formasında evləri vardır. Ən üstdə və tam ortasında yumru bir dəlik açılmışdır. Bu bacadan içəriyə işıq girər, eyni zamanda tüstü çıxardı. Ataş yeri və ya ocaq, hər vaxt çadırın ortasında olardı..." **(44)** Türk mifologiyasında ocaq, "...Orta Asiya Türk Mədəniyyətindəki "Göyün Dirəyi" simvoluna qarşılıq gələn bir ünsür." (**7, s.418)** olaraq da bilinməkdədir. "Göyün Dirəyi,… səma ilə yer üzü arasındakı əlaqənin simvolu idi... Bir başqa ifadəylə evin ruhi dünyaya açılan qapısıdır. Gəlinin evin orta dirəyinin ətrafında dolaşdırılması, səmadan gələn təsirlərlə gəlinin əlaqələndirilməsi və o təsirlərlə yuyunması, təmizlənməsi mənasını verər... Bu inisiyasionun birinci mərhələsinə qarşılıq gəlir. Orta Dirəyin ətrafında gəzmək isə inisiyasiondakı ikinci mərhələyə keçişi simvollaşdırmaqdadır. Çünki artıq əsl ruhi təmizlik başlayacaq." **(7, s.418)**

Şamanizmdən qaynaqlanan "ev-evren simvolizmindəki gübbə-göyüzü-yay, orta dirək-həyat ağacı-ox ilişkiləri" **(3, s.41),** əslində "*ruhi təmizlik*" anlayışı ilə bağlıdır və bu anlayışın sonradan islamiyyətlə qaynayıb-qarışması fikri, ocaq başında gəlinin etdiyi "*dua rituali*"nda öz təsdiqini tapır. Məsələn,"Manas Dastanı"nda bir gəlinin qayınatasının evinə girişi belə təsvir edilər: Qızlar və gəlin cüt-cüt olub evə girdilər. Gənc gəlin ağsaqqala əyilərək salam verdi; Ağsaqqal atəşə yaxın gəldi, əyildi, atəşə salam verdi." **(7, s.419)** Ağsaqqal, yəni qayınata (həm də ata) atəşlə gəlin arasında, bir növ vasitəçi rolunu oynamaqdadır. Qız, ata evindən ər evinə uğurlanarkən, atası tərəfindən üç dəfə ocaq başına dolandırılar. Atanın xeyir-duasını aldıqdan sonra, çıraqla (lampa) yeni "*yurd*"a yola salınar. Ər evinə qədəm basan gəlini, qayınata qapının önündə qarşılar; ona "xoş gəldin" deyər və əyilərək atəşə təzim edər. Bu adət, yeni qurulan ailəyə - ocağa ehtiramın və şükranlığın ifadəsidir. Türk kültüründə evliliyin yanan atəşə bənzədilməsi, bu baxımdan diqqət çəkicidir. Bəlli ki, "dinə inanlar, "lampa, atəşin, ruhun simvoludu, ruh ölməz, o evlərə gəlir, o atəş kimidir" deyərlər. Bu səbəbdən "Lampa rəqsi", Sincanın (Doğu Türkistan) güzey və güney bölgələrində bu gün də vardır." **(9, s.42)**

Atəşə inam, islamdan öncə Uyğurlarda da görülmüşdür. Şər ruhları qovmaq və xeyir ruhları səsləmək niyyəti ilə ocağın alışdırılması, kürəkənin dostlarının, ehtiram əlaməti olaraq qız evinin böyüklərinin qarşısında doqquz dəfə yerə əyilməsi, ər evinə yola salınan qızın qarşısında göyə doqquz dəfə atəşin açılması və s. bu kimi adətlər, Türk qəbilələrinin "*toy*" rituallarına daxildir. Doqquz rəqəmini, göyün doqquz qatı ilə əlaqələndirən Bektaşilik, göyün yeddi qatdan deyil, doqquz qatdan (göydən sonra gələn Ərş ilə Kürsi də bu qata daxil edilir) ibarət olması fikrini əsas götürmüşdür. Göyün doqquz qatı ilə dörd ünsürün (torpaq, hava, su və od) təmasından "*insan*"ın meydana gəlməsi fikri də Bektaşiliyə məxsusdur. Bektaşiliyə görə "9 qat göyə "Doqquz Ata (abayı ülviyə)", 4 ünsürə də "Dörd Ana (ümməhatı süfliyə)" deyilir." **(45)** Türk xalqları arasında doqquz rəqəminə verilən dəyər - "düyünlərdə doqquz çeşit meyvə hazırlama, düyündə qız tərəfinə doqquz parça qumaş vermə, yeni evlənən qıza qoyunun yeddi tülimi (bağırsaqlarını) bişirib yedirmə, düyünün doqquzuncu günü qohumların bir-birini ziyarət edər, kənd doqquz qazan asıb, doqquz qoç kəsib camaatı dəvət etmə, böyüklər qıza dua edərkən "doqquz oğul və bir qızı olsun" diləyində olanlar, doqquz kilo aşlıq (qida) zəkat vermə, ölüm olan evə doqquz çörəklə bir kasa mürəbbə alıb getmək, ağı oxunarkən doqquz yerə şam yandırmaq və doqquz fitilli qara lampa yandırıb rəqs etmək kimi fəaliyyətlər, xalq arasında bir inanc olaraq mühafizə edilmişdir.**" (9, s.40-41)**

Türkmənistanda "*nişan*" ənənəsinə az rast gəlinir. İki ailənin bir yerə yığılaraq qıza nişan qoyması "*yağlık çəkmə*" *("çarşab örtmə")* ənənəsi ilə bağlıdır. "Qız payı" boxçası açılmadan öncə oğlanın anası, gələcək gəlininin başına çarşab bağlar. Düyünün vaxtı, qadınlar tərəfindən bəlirlənən başlıq parasının oğlan tərəfindən ödənilməsindən sonra təyin olunar. Türkmənlərin "*doqquzu düzüv"* və ya "*doqquz düzmək*" ənənəsinə əsasən, ərə gedəcək qızın, cehizinin içində yer alacaq əşyaların sayı doqquza çatmalıdır və bu əşyalardan bir çoxu (yorğan, döşək, yastıq, məhraba və s) cüt şəkildə olmalıdır. Ənənəyə görə, düyün olan evin çöl hissəsini bəzəmək işi kişilərə, evin içi isə qadınlara həvalə olunar. "*Söykö saluu*" ("*kuda saluu" – "qayınata olmaq*"), Qırğız Türklərində nişan mərasiminə verilən addır. Mərasimdə oğlan tərəfi nişan rəmzi olaraq qızın qulağına sırğa taxar. Özbəklərdə isə oğlan tərəfindən verilən əsas hədiyyə "*orayda*" zamanı (gəlin ər evinə girərkən) verilər. Gəlin kişi evində, "*otov*" (gəlin üçün hazırlanan otaq) önünə gəlincə, atdan endirilərkən bu "*Böyük Orayda*" deyilər; gəlinin üzərinə taxıl sancılar." **(26)**

"*Gəlinə alqış tutmaq*" Tuvalıların toy ənənələrindən sayılır. Ətrafı tərəfindən seçilərək "*axsaq qadın*" ləqəbli şəxs, "*alqış tutmaq*" məqsədiylə bir əlində balta, o biri əlində içi yulaf dolu bez, gəlinlə birgə qayınatagilə üz tutar. Bunu görən "qayınana bir kasaya süd qoyaraq əvvəl özü dadına baxar, sonra gəlininə verər. Gəlini də südün dadına baxar və təkrar qayınanasına verər." **(38)**

Tuvalılarda toy estafeti ocağın alovlanmasıyla başlar: Arxa-arxaya otağa daxil olan iki oğlan, əllərindəki quru odun parçalarını bir-birinin üsünə yığaraq, ocağın alovlanması işini gəlinlə kürəkənə həvalə edər. İstək yerinə yetirildikdən sonra, kürəkən öz bacarığını göstərmək üçün ova göndərilər. Ov ətindən hazırlanan yemək, qızın böyüklərinə təqdim edilər. Yemək əsnasında qız tərəfin bir-birinə yönəlik "*doydum*", "*oldu*" söylənişi, iki gəncin izdivacına razılığı işarələr. "İlk ovdan sonra toy düzənlənməsi sıx rastlanan bir durumdur. Bu toy, ilk ovun sosial qəbulu və onaylanması anlamını da daşımaqdadır. Beləcə, gəncin sorumluluq sahibi bir erişkin olduğu, evlilik, bəylik və ad alma kimi erişkinlik simvollarını haqq etdiyi təsdiqlənəcəkdir.**"(3, s.50)**

Sağdişin (gəlinin rəfiqəsi) müşaiyəti ilə gəlinin kürəkən evinə götürülməsi də Türk xalqlarının toy adətlərindən sayılır. "Anadolu da da əskidən gəlin almağa süslənmiş bir atla gedildiyi bilinir." **(14, s.78)** Qızın ata evindən yola salınması, "günümüzdə Türkmənistanda ölməyə başlayan bir ənənəyə görə, kəcavə (kecebe) içində götürülür. Kəcavə, əsasən dəvənin belində qurulan, ağacdan düzəldilmiş, dördkünclü bir oturma düzənəyidir. Üç tərəfi xalçalarla və ya ipək parçalarla əhatəlidir. Alt tərəfində

*yürök* ("ürək") adı deyilən oturma yeri mövcuddur. Yürök, gəlinin dəvənin üstündə rahat otura bilməsi üçün xalı, yorğan və b. şeylərdən ürək şəklində hazırlanmış bir oturma yeridir. Gəlin kəcavəyə oturunca, kəcavənin ön tərəfinə də bir örtü gəlir." **(14, s.78)**

Türkmən toylarında yer alan və böyük bir coşğu ilə keçirilən "*seçmə*" mərasimi, toyda hədiyyə qazanmaq məqsədinə xidmət edir. İştirakçısı kişilərdən, tamaşaçısı isə qadınlardan ibarət olan bu mərasimdə, dama bir oğlan çıxar, toy əhlini əlində tutduğu əşyanı ələ keçirməyə təhrik edər. Qalib gələnlər, ancaq at və ya güləş yarışmaları zamanı, "*Əmin*" deyilən yarış hakimi tərəfindən mükafatlandırılar. Maraqlı cəhət ondadır ki, "Armin Herman Vambery, 1863-cü ildə Türkmənistana etdiyi səyahətdən bəhs edən əsərində, Türkmən bəxşiləri haqqında, "Türkmənlər üçün ən böyük zövq, bəxşinin gəlişi və dutar yoldaşlığında Köroğlu və ya Məhdimqulu türkülərini icra etməsidir" deyərək, onların Türkmənlər arasında nə dərəcə rəğbət gördüyünü ifadə etməkdədir." **(39)** Ümumiyyətlə, əyləncə xarakterli şənlik mərasimlərində hədiyyə, mükafat, şabaş və s. kimi maddi dəyərləndirmələr, Türk xalqlarının mərasim ənənəsi üçün xarakterikdir. "Bu gün belə Suriya Türkmən kəndlərində əksəriyyətlə kəndlərdə görülən "şabaş", ictimai həmrəyliyin ən gözəl nümunələrindən biridir. Toyun son günü … toya qatılanlar, müəyyən bir nizam içində uzun bir halay meydana gətirər. "Şabaşı baraban çalan abdallardan biri ortalıq yerdə "şabaş-şabaş" deyə yüksək səslə pul toplamaya başlar…Toplanan bu pullar toy sahibinin xərcləri üçün xərclənər…Şabaşdan sonra … atla gəlin gəzdirilərdi… bəzi kəndlərdən keçən toy alayının yolunu kənd uşaqları kəsər, bəxşiş almaq üçün yola daşlar düzərlər, bəxşişlər alındıqdan sonra yollar açılar, bu şəkildə gəlin evinə çatılar. Kürəkən evin damına çıxar, gəlinin başına şəkər-pul səpər, uşaqlar şəkər qapmaq üçün sanki bir-birləri ilə yarışar." **(2, s.227)** Bu, əski Türk kültüründə "*saçı ənənəsi*" olaraq dəyərləndirilməkdədir. "Yenə bu gün gəlinin başına parlaq markalar və ya şəkər atmaqla modernizə olan "*saçı ənənəsi*"nin kökləri Türklərin ən əski inanmalarından olan Şamanizmə qədər gedər."**(25, s.156**) Təməlində müxtəlif inancları barındıran "*saçı*", əski Türklərin "*gəlin alma*" ənənəsində yer alır. Bu ritualda əsas obyekt, bəsit funksiyalı "*tanka*"dır. Ənənəyə əsaslanan, insanla kainat arasında əlaqənin yardımçısı funksiyasını daşıyan, "gəlinin saç hörgüsünə hörülən, kürəkən tərəfindən saçı olaraq paylanan və hamama girdiklərində pəncərə önü, hamam göbəyi kimi yerlərə qoyulan tanka (gümüş axça), bolluğun, Göylə eyniliyin simvolu olaraq yer, ev, hamam və s. yerlərdə olduqlarına inanılan qoruyucu ruhun şəfqətini qazanmaqda əhəmiyyətli rol oynamışdır. Gümüş tanka, Göy rəngini, ulduzu xatırladar və Göyün bir parçası hesab

edilərmiş. Yerdə edilən bütün işlərdə onun müvəffəqiyyət gətirəcəyinə inanılarmış.” **(35, s.126**) Qeyd etmək lazımdır ki, “bəzək əşyası olaraq bir xalqın geyimlərində və həyatında iştirak edən tankanın daşıdığı məna” zaman-zaman dəyişikliyə uğrasa da, Slav, Alman qəbilələrində və Antik Yunanların da toy ənənəsində yer alan “saçı” mərasimi günümüzdə də öz yaşamını davam etdirməkdədir.

Türk mifologiyasında “törəmək üçün lazımi təchizata malik” olan qadın, dünyanın mərkəzi, “əbədi çevril mitosunu işarələmək”lə “kozmoqononin yenilənməsi”nə meydan açan hər yeni gəlin isə “bir mikro-kainat, bir həyat ağacı” olaraq qəbul edilir. Bəlli ki, Türk xalqlarının həyatı üçün əhəmiyyətli rol oynayan “hər evlilik mərasimi yaradılış hərəkətinin ayinsəl olaraq yenidən təkrarlanmasıyla müqəddəsləşdirilmişdir. Anadolu çölündə, gəlin başlarında istifadə edilən ağac budaqları, çiçək dəstələri və tüklər, çiçək və ağac formalı metal və oya taclar gəlin başlarında istifadə edilən aksesuarlar olub gəlini bir mərkəz halına gətirməkdədir.” **(21, s.118- 119)** “Baş bəzəmək” Türk inanc sistemində “dünyanın yaradılışını yenidən hazırlamaq” anlamını verməkdədir. Türk həyatında “qadının ictimai statusunu, zövq, inanc, duyğu və düşüncəsini əks etdirən bir ünsiyyət vasitəsi” olaraq dəyərləndirilən, xalqın “inanc fəlsəfəsinin maddi mədəniyyətə əks etdirildiyi ənənəvi bir baş geyimi xüsusiyyəti”ni **(13, s.155)** özündə əks etdirən aleyçin, subay qızların bəxtinin açılmasına və gəlinlərin xoşbəxt həyat yaşamasına inancını simgələr. Türkiyənin Çorum bölgəsinin Şiə kəndlərində “Toy əvvəli gəlin qızın yaxını olan qadınlar tərəfindən hazırlanan və yalnız toyda gəlinə geydirilən aleyçin, Hz. Əliyə duyulan sevgi, hörmətin bir göstəricisi olaraq Əli üçün, Əliyə mənası yüklənərək, xalq ağızında zamanla aleyçin sözünə çevrilən və toylarda istifadə edilən gəlin başlığına verilən addır.” **(13, s.155)** Əvvəllər “Anadoluda qız evdən çıxmadan əvvəl anasının tikdiyi bir “analıq” geyimini geyər. Ancaq bundan sonra gəlinin başlığı qurular və gəlin paltarı geydirilərdi.” **(25, s.154)**

Türk mifologiyasında yer alan “*ev*”, həm də “*mağara*” olaraq görülür. Burada “*mağara*”, ana bətni olaraq düşünülür. “Mağarada doğulma və ya mağarada olma düşüncəsi Türk xalq izah etmələrində də iştirak etməkdədir.” **(10, s.52**) Bir çox Türkdilli xalqların mənşə əfsanəsində yer alan *mağara*, Hun Türkləri üçün müqəddəs *ata ocağı* sayılır. “Misirli tarixçi Aybek ed-Devadarinin Türklərin mənşəsi haqqında izah etdiyi əfsanədə, Türklərin ilk atası ay-Ata da yenə bir mağarada meydana gəldiyini” **(10, s.51)** söylər. “Battalnamə”də Seyid Battal Qazinin dünyaya gəlmədən öncə ana bətnini xatırladan bir mağarada doğulduğu söylənməkdədir. Bənzər hal ilə biz, “Bozqurd Dastanı”nda qarşılaşırıq. Ziya Gökyalpa görə, “*mağara*” təkcə saxlanma motiviylə bağlı deyil, həm də

"*yeraltı dünyaya açılan qapı*" olaraq da dəyərləndirilməkdədir. Məhməd Qaplan, bu fikri bir qədər də konkretləşdirərək "*mağara*"nı içə dönüşlə - insanın "*yenidən doğulma*" motivi ilə əlaqələndirir. Oğuzlar, Türkmənlər və Qərb Türkləri "*mağara*" motivini, daha çox ictimai funksiya daşıyan "*gərdək" ("çadır*") anlayışı ilə eyniləşdirirlər. "Divanı Lüğətit-Türk"də gərdəyin adı "*mendiri*" olaraq keçir; "bu ...çadırın bəzəndiyini, görkəmi ilə evlənən adamın etibarı arasında bir əlaqə olduğunu və bu çadırın tikiləcəyi yerin evlilik mərasimindən əvvəl ox atılaraq təyin olunduğunu "Dədə Qorqud" hekayələrindən bilirik. Gərdək çadırının yerinin təsbit edilməsində iştirak edən ox atma tətbiqi "Dədə Qorqud" hekayələrindən əlavə, başqa qaynaqlarda da təzahür etməkdədir. Bəzi qaynaqlar bizə, Başqırd Türklərində bir ata oğulunu evləndirmək istəsə ona ox atdırar və atdığı ox hara düşsə oradan evləndirdiyini xəbər verməkdədir." **(10, s.53)**

"*Gərdək*" (farsca "*qübbə", "qübbəli bina*"), toy gecəsi gəlinlə kürəkənin baş-başa qaldıqları otaq, "*gərdəklik*" (Özbəklərdə "*otov*"- evlənən cütlüyün xifafa girdiyi çadır), "*gərdəyə girmək*" isə "*zifaf gecəsi*" mənasında işlədilməkdədir. Türk inanc sistemində göy qübbəsinin, müqəddəs bir özəlliyə sahib olması baxımından "əski Türklərdə Göy "çatıl", Yer isə "dişil" prinsipin simvolu olaraq ələ alınmaqdadır idi. Xatırlamaq yerinə düşər ki, İslam Təsəvvüfü düşüncəsinə görə insan makro kozmosun yer üzündəki bir kiçik bənzəri və parçasıdır. Təsəvvüfdə bu səbəblə də insana "mikro kosmos" təyin etməsi gətirilmişdir." **(7, s.423**) Hunların, Göytürklərin və hətta Çinlilərin də belə çadırlarını göy qübbəsi şəklində inşa etdirmələri fikrimizcə, onların Yerdə öz "*mikro kosmos*"larını yaratmaq cəhdi ilə bağlı olmuşdur. Məlumdur ki, "Hunlara və Göytürklərə gəlin gedən Çinli şahzadələr, öz gəlin otaqları olan qübbəli Türk çadırları üçün, şeirlər belə yazmışlar…" **(10, s .54)**

Türkmənistanda "gərdək gecəsi", kürəkən milli paltar geymədən yoldaşları tərəfindən gəlinin olduğu otağa gətirilməz. "Azərbaycanda isə, bəy (kürəkən), toy gecəsi gərdəyə girər. Gərdək gecəsi qızın belindəki qırmızı qurşağı həll etmək üçün kürəkən gəlinə bir sıra hədiyyələr verər... Əgər gəlin bakirə isə bu gərdək gecəsi silah atılaraq ifadə edilər. Əgər gəlin bakirə deyilsə, bəzi bölgələrdə ya saçları dibindən qırxılar və ya bir eşşəyin belinə tərs mindirilərək ata evinə göndərilər. "Türklərdə bəkarət anlayışı, islamiyyətdən əvvəl də vardı. Türklər, bakirə qız üçün "kopaglıg qız" deyərdilər." **(25, s.155)** Gərdəklə bağlı ənənədə yer alan "P*ərçəm*" (*kəkil - tel*), Ərzurum ətrafında rituala çevrilən əski "*toy*" adətlərindən sayılır. Rituala görə "toydan sonra gəlinlə kürəkən üç gün boyunca otaqlarından çıxmazlar. Üçüncü günün sonunda gəlin otaqdan alınaraq, əvvəl qayınana və qayınatasının, daha sonra

da digər ailə böyüklərinin əlləri öptürülür. Ardından birlikdə yemek yeyilir. Yeməkdən sonra anası və atası sağ olan bir gənc qızın əliylə, gəlinin kəkili kəsilər və ortaya qoyulmuş sininin içinə hər kəs hədiyyəsini buraxar, yeyilir, içilir, oynanır." **(7, s. 423)** Bu rituala günümüzdə Çində də rast gəlmək mümkündür: "Yeni evlənən cütlük gərdəyə girdikdən sonra, bir-birlərinin saçından qarşılıqlı olaraq bir tutam kəsər və bunu xatirə olaraq ömür boyu saxlayarlar." (**40**) Türk ənənəsində gərdəyə girmədən öncə elin ağbirçəyi ("*pazırthan içe")* tərəfindən saç hörüklərinin əlli və ya altmış olduğu bilinən alp qızlarının hörgülərinin ikiyə endirilməsi, Xakas dastanlarında da görüldüyü kimi "sas toyu" ("saç toyu") ilə müşaiyət olunur. "Ümumi qənaətə görə qızların bir çox hörgüsü (sürmes) olardı, bunların hörülməsi bir saatı alırdı (otsar). Evli qadınların iki hörgülü saçları olardı (tulun). Qoca qadınların isə üç hörgüsü olardı (sürmes). Gənc bir qız evlənmədən bir doğum etdiyində tək hörgüylə gəzmək məcburiyyətində idi (kiçege) ki, bu vəziyyət bir rüsvayçılıq sayılmaqda idi..." (**6, s. 30**)

Türkdilli xalqların etno-psixologiyasının və həyat fəlsəfəsinin eyni kökdən pərvəriş etdiyini sübuta yetirən bir çox dastanlarda toy ənənələri ilə bağlı xeyli məlumatlar yer alır. "Kitabi-Dədə Qorqud", Türk xalqlarının toy ənənəsi ilə bağlı əsas qaynaqların önündə gəlir. "Kitabdakı Bamsı Beyrək boyundaki toy təsvirləri, dastandakı toyların quruluşunu şərh etməyə imkan yaradır. Bu boyda ifadə edildiyinə görə, toyda ozan, qopuz çalıb şeir söyləməkdə, toya qatılanlar üçün yeməklər hazırlanmaqda, ox atma yarışmaları təşkil edilməkdə və qadınlar öz aralarında oynamaqdadırlar." (**16, s.125**) Ümumiyyətlə, bol-bol yeyib-içmənin, at yarışının, ox atmanın, güləşin, ozan dinləmənin əsas sayıldığı toy ənənəsi, Türk dastanlarında demək olar ki, bir-birinin bənzəridir. "Köroğlu"nun Türkmən versiyasında Davud Sərdar üçün toy hazırlığı edilərkən bütün obalara, şəhərlərə atlılar göndərilər, yeddidən yetmiş yeddiyə hər kəs toya dəvət edilər, toy əvvəli ovçular ova çıxar, altı və səkkiz qanadlı çadırlar qurular, oğlaq qapma və ox atma yarışmaları təşkil edilər. Davud Sərdarın evləndiyi qız, əcnəbi bir ölkədəndir, ancaq toy, Türkmən ənənələrinə görə edilmişdir. Toy günü ərəfəsində At yarışdıranlar atlarını sığallayıb gəzdirərlər, pəhlivanlar güləş hazırlıqları edərlər, bahşılar isə dutarlarını ("dutar"- tut ağacından armud biçimində düzəldilmiş qoşa telli çalgı aləti - M.M) kökləməklə məşğul olarlar." (**16, s.125**) "Yusif Əhməd" dastanında geniş yer alan toy adətlərinə görə "Qırx otaq ilə otuz çadır tikdirilib, üç yüz qoyun, yüz mal, altmış at, otuz dəvə kəsdirilmiş; dörd yüz dəvə yükü düyü gətirilib, altmış aşbaza yemək bişirtirilməkdədir. İti nişançıları atış edib pəhləvanları güləşməkdə, yaxşı at minicilər at yarışdırmaqda, igidlər gedib-gəlməkdə, yaşlılar növbə gözləməkdə, müdriklər söhbət etməkdə, igidləri

tüfəng atmaqda, qadınları təndirdə çörək bişirməkdə, sarvanlar dəvə güləşdirməkdə, maskaralar oyun oynamaqda, kəndirbazlar iplərdə tullanmaqda, yüz cür hünərlərini göstərməkdə, xalq isə yayılıb oturmaqda." (**16, s.126)** Bir çox Türk dastanlarında, özünə sevgili tapmaq üçün qəhrəman minbir əziyyətə qatlaşmalı olur. Müəyyən vəzifələri icra etmək, yarışlara qatılmaq, uğurlara imza atmaq bir yana, "qəhrəman, bir döyüşçüyə bənzəyən sevgiliyə qarşı da mübarizə edib, ona üstün gəlmək məcburiyyətində" (**6,s. 23)** qalır. "Sibir Türk dastançılıq ənənəsindəki alpların evlilikləri haqqında F.Bayat bunları ifadə edər: "Qəhrəmanın epik bioqrafiyasının tamamlanmasında bir keçiş riti olan evlənmə motivi əhəmiyyətli yer tutar. Türk epik ənənəsinin Sibir ilə Altay-Sayan, Qıpçaq ilə Oğuz qolları, evlənmə motivini ilk qəhrəmanlıq ağdindən biri olaraq göstərərlər. (…) Bahadırlıq səciyəsi daşıyan evlənmə motivində qəhrəman sevgilisinin ardınca gedib bir çox hadisədən sonra (o, evlənəcəyi qızla at qaçdırıb ox təyin edər; bəzi Yakut dastanlarında Qazan qızı tuta bilmə vəzifəsini yerinə yetirər; qızla güləşər və ya qıza talib olan digər bahadırlarla yarışıb qızın atasının verdiyi çətin vəzifələri yerinə yetirər və s.) onu gətirər." (**6, s.23**) Türk xalqlarının dastançılıq ənənəsində yer alan evlilik ritualları ilə bağlı döyüş səhnələri qəhrəmanın qorxmazlığını, döyüş əzmini, mübarizliyini sərgiləməklə yanaşı, onun insanpərvərliyini, sülhpərvərliyini də ön plana çəkir. "Seroşevsky, "Yakut toyu, bir barış mərasimini xatırlatmaqdadır" deyir. Bütün Türk toyları üçün eyni şeyi söyləyə bilərik. Çünki Türk toylarında, simvolik döyüş ünsürü ilə, gerçək barış ünsürü yan yana görülür.... Altay Türkləri axtarışında qız istəməyə gedənlər, "doqquz nəsil əvvəl aramızda savaş vardı; indi biz barış etməyə gəldik deyə sözə başlarlar və beləcə "barış"ı ifadə etmiş olarlar." (**19, s.32**)

Toy, "Kitabi-Dədə Qorqud"da iki formada təzahür edir: "*Kiçik toy" ("nişan toyu*"); "*Ulu toy" ("xına", "gəlin köçürmə", "gərdək", "evlənmə toyu*"). Xakaslarda da "gəlinin ölkəsində keçirilən düyün ilə oğlanın ölkəsində keçirilən düyün olmaq üzrə ikiyə ayrılarkən, qız toyu "*kiçik toy", oğlan toyu "ulug-toy"* adını alır." (**6, s.24**) Xakaslarda bütövlükdə "*toy*" anlayışı, "*ülü kün", yəni "böyük gün*" anlamını verməkdədir. Xakas dastanlarında bunlardan yalnız bir neçəsinin adı keçir; "ilk qrupdakı toylar kin toylar (plasentanın basdırılması toyu), pizik toy (beşik toy), burma toy (ad toyu), tis toy (körpənin ilk diş çıxarmasından sonra tərtib edilən toy), kispik-toy (ilk saç toyu), tuzamah kiskən toy. İkinci qrupdakı evlilik toyları öz içində sas toy (iç-içə keçmiş saç toyu), çaras (universal), kiçig-toy (hıs toy) (qız düyünü), ulug-toy (ool-toy) (düyün), ib-toy (yeni ev toyu), tergin (valideynlərin ilk gəlin ziyarəti) və s." (**6, s.115-116)**

Türk xalqlarının toy ənənəsi ilə bağlı məlumatlara Fransız səyyahların "Səyyahətnamə"lərində də rast gəlmək mümkündür. Məsələn, Le Brun, xristianlarla müqayisədə Türklərdə üç növ evlilik şəkli olduğunu diqqətə çəkməkdədir: 1. "*Qanuni evlilik", 2. "Kəbin", 3. "Kölələrlə evlilik*". Olivierə görə "birincilərlə evlənilər, ikincilər kirayəyə götürülər, üçüncülər isə satın alınar." (**24, s. 195**) Le Brun, evliliyin "kəbin" şəklini izah edərkən qeyd edər ki, "bu cür bir evlilikdə, tərəflər ödəniş mövzusunda razılaşdıqdan sonra qazıya gedərlər və üzərində qadına verilməsi lazım olan pulun miqdarı yazılı olan bir evlilik aktı hazırladarlar." Olivierə görə isə, Türklər, bu evlənmə şəklinə o qədər də önəm verməmişlər. "Çünki, müəyyən bir səviyyənin üzərindəki Türk qadınları, bu şəkildə evlənməyi əsla qəbul etməzlər. Digər tərəfdən Türk kişiləri də, bu şəkildə kasıb bir qızla evlənməkdənsə, əsir bazarından bir qız satın almağı seçim edərlər." (**24, s.196**)

Türk kültüründə ailə, dövlətin təməli sayılır. Bu, "ailənin davam etməsi, dövlətin davam etməsi anlamına gəlir." (**20, s.116**) Bu üzdən ailənin möhkəmliyinə cavabdeh olan "ataların vəzifəsi, oğulun təhsiliylə sona çatmaz. Ata, oğluna ayrı bir həyat qurmaqla da vəzifəli." (**16, s.127**) sayılar. "Manas" dastanında "Manasın atası Cakıp Xan, oğlunun evlənəcəyi qızı tapa bilmək üçün yurdundan ayrılar və uzaq ölkələrə gedər. Sonunda bir çobanın tövsiyəsiylə Teymur Xanın qızı Kanıkeydə qərar verər." (**16, s.127**) Oğlunu evləndirmək istəyən Türkmənlər, ailəyə uyğun qız tapmaq üçün vasitəçini - *savcını ("söz aydıcısı*") görəvləndirər. "Abdulqadir İnan, "Türk düyünlərində "Exogamie izləri" adlı məqaləsində Başqırd, Qazax və Altay ləhcələrində kürəkən və qız arasında vasitəçilik edən kişiyə *yavçı (yuçı)* deyildiyini bildirmiş və Anadolu Türkləri arasında da, bu kişiyə *görücü, dünürcü, elçi* kimi adlar verildiyini əlavə etmişdir." (**14, s. 73**) Bu da, bir həqiqətdir ki, "görücü yoluyla evlənmə əski Türk ənənəsində yoxdur. Radloff, Altaylılarda qadın və kişi arasındakı danışma və görüşmə sərbəstliyinin çox uzaq keçmişlərə söykəndiyi qənaətindədir." (**11, s.103**)

Mənsub olduğu boya, özünə layiq həyat yoldaşı seçmək, Türk dünyasında əskidən bir qəhrəmanlıq işi sayılmışdır. Əski inanca görə, ailə həyatı qurmaq arzusunda olan gənc, yalnız şamanlar tərəfindən məlumatlandırıldıqdan sonra evliliyə təşviq edilmişlər. Əski Türklərin evlənmə adətində "*endogami*"nin ("*içəridən evlilik"*) deyil, "*egzogami"("kənardan evlilik"*) qaydasının hakim olduğunu qeyd edən "İnana görə,... "Yenisey kitabələrindən birində "yatta tühürimə ardıldım"-yad əldəki qayınatamdan ayrıldım- qeydi də göstərir ki, o dövrdə qayınata yad eldən olardı. Bu adətin əsrlər boyu sürətlə davam etdiyi aydın olmaqdadır." **(32, s.100)** Bu yerdə İnan, onu da bildirir ki, "hətta Oğuzlar

Anadoluya gəldikdən sonra egzogami qanununa uyğun gəlmişlər. Dədə Qorqud izah etmələrindən aydın olduğu kimi, İç Oğuz Bəyi Qazanın dayısı Daş Oğuz Bəyi Aruz idi. Beybura ilə nişanlısı Banuçiçək bir-birini tanımırdılar. Qazan bəyin oğulu "yad qızı halalıma destur versin" deyə vəsiyyət edir; Dəli Domrul "yad qızı halalım var" deyir." (**32, s.100**) Qeyd etmək lazımdır ki, *Totemizm ("totem*"- qəbilənin müqəddəs bildiyi hər hansı bir nəsnəyə simvolik bağlanışı), ilk dini və ictimai sistemində eyni kökdən gələn qadın və kişilərin bir-biriləri ilə evlənməsi yasaq edildiyindən, kənardan evlənmə (*ekzoqami*) zərurəti yaranmışdır. O da məlumdur ki, "ilk insanın, ətrafına və təbiətə baxaraq, yaradıcısını axtarışından, Tanrı axtarışından ortaya çıxan Totemizm, nəsil xaricindən evlənmə qaidəsi ilə, ailə təşkilatının qoruyucusu olmuşdur." (**19, s.3**) Öcal Oğuz bildirir ki, "Türk kültüründə yabançıdan qız almaq "erkəklik, igidlik", yabançıya qız vermək "zül" sayılmışdır... Məsələn, Dədə Qorqud qəhrəmanları, "kafir qızlarına şərab içirdib əylənməklə" öyünərkən, Burla Xanunun kafur çadırına getməsinə oğlu Uruz canı bahasına əngəl olmağa hazırdır." (**22, s.22**) "*Çöldən evlənmə*", Oğuz Türkləri üçün əhəmiyyət kəsb etmədiyi halda, digər Türk qövmləri (Qazaxlar, Başqırdlar, Altaylar, Yakutlar, Uyğurlar və b.) üçün həyati məsələ sayılmışdır. Türk boylarında içdən evlənməyə qoyulan cəzanın ölümlə nəticələnməsindən doğan ağrı və əzablar, toy ənənəsi ilə bağlı mahnılarda öz ifadəsini tapar. Bu mahnılar, toyu bir başqa havaya soxar. Məsələn, "Başqırd qızları toyun son günü, yəni qızın ər evinə gedəcəyi günü, matəm gününə çevirərlər. Ölülərə ağı söyləyər kimi çox yanıq ahənglə qırx-əlli qız bir ağızdan mahnı söyləyər ki, buna sindev deyərlər." (**19, s.33**) "*Çöldən evlənmə*" ənənəsinə dolayısı yolla da olsa qızın öz etirazını ağlayıb-sızlamaqla bildirməsi "*sınsıv*"ın ("*aytış*" da deyilir) mövzusunu təşkil edir. Mövzuyla bağlı "N. Devkaraev, bunları söylər: "Qız, evlənmək amacıyla evdən kürəkən tərəfinə gedərkən, ümumiyyətlə ağlar... Qız, evdən gəlin olaraq çıxarkən ağlamazsa bu, ayıb sayılır. Qız, bir az ağladıqdan sonra, qızı almağa gələn kişilər, çadırın təpə qismindəki keçə parçasını (üzik) qaldırıb, "Ağlamağı buraxsın, olur indi", "Haydi, alıp çıxın, çıxardın" deyə səslənirlər. Bundan sonra ağlayıp dayanan qız, içində olduğu vəziyyəti və başına gələnləri koşuk ilə söyləməyə başlar." (**27**)

İslamdan sonra oturaq həyata keçən bir çox Türk birliklərinin evlənmə mərasimlərində əski köçəri həyatına dair "*exogamie*" ənənələrinin davam etdiyini vurğulayan "Abdulqadir İnanın "Türk Toylarında Exogamie İzləri" başlıqlı məqaləsində olduqca doyurucu məlumatlar vardır. İnana görə Türklər, həm exogamie yoluyla evlilik edirlər, həm də qızı, döyüşərək, yəni qaçıraraq alıb aparırlar. Yenə İnan, exogamie ənənəsinin İslamlaşma ilə birlikdə yumşaldığını, ancaq "qaçıraraq evlənmə"

tətbiqinin hələ canlı olduğunu ifadə edər." (**10, s.48**). Qıpçaqların nəvələri sayılan Başqırdların, eyni zamanda Yakut və Altay Türklərinin evlilik ənənəsindəki "*qaçıraraq evlənmə"*nin qanuni hal alması, "sosial-kültürəl quruluşun gərəyi" (**10, s.49**) olduğu düşünüldüyündən, günümüzdə də öz yaşamını itirməmişdir. "Manas" dastanında, Manasın "yağma edərək qız alıb götürdüm, lakin qız almış kimi olmadım" söylənişi, "qaçıraraq evlənmə"dən duyulan peşmanlçılığın ifadəsi sayılır. Bu, o anlama gəlir ki, "sosial-kültürəl quruluş bu halıyla davam etdiyi müddətcə "qaçıraraq evlənmə" ənənəsinin də davam etməsi qaçınılmaz." (**10, s.49**) olacaqdır.

Hunların "*pədərşahi*" və "*egzogami qanunu*" ilə ailə quran bir qövm olaraq tarix səhnəsinə çıxdığı söylənir. Eyni zamanda Göytürklərdə, Uyğurlarda və Qırğızlarda da "müəyyən bir boya qız vermə, yəni qarşılıqlı qız dəyişdirmə ənənəsi"nin də əsrlər boyu davam etdirildiyi söylənirkən qeyd olunur ki, "hətta Oğuzlar Anadoluya gəldikdən sonra egzogami qanununa uyğun gəlmişlər. Dədə Qorqud izah etmələrindən aydın olduğu kimi, İç Oğuz Bəyi Qazanın dayısı Daş Oğuz Bəyi Arıq idi. Beyböyrək ilə nişanlısı Banu Çiçək bir-birini tanımırdılar. Qazan bəyin oğulu "yad qızı halalıma dəstur versin" deyə vəsiyyət edir; Dəli Domrul "yad qızı halalım var" deyir." (**29, s.100**)

Son zamanlara qədər Yakutlarda və Altay Türklərində öz qanuniliyini qoruyub saxlayan "*yağma*" (türkcə "*şölən*", farsca "*şeylan*") və "*qız qaçırma*"nın, öz yerini buraxdığı "*elçilik*" üsulu ilə "...evliliyin Hunlardan etibarən yayğın hala gəldiyini Oğuz dastanında "Qaraxan, oğlu üçün Kür-Xana adam saldı qızını istəyərək, oğulu Oğuza aldı" ifadəsindən anlamaqdayıq." (**11, s.104**) Daha çox gənclər tərəfindən icra edilən "*yağma*" ilə bağlı toy ənənəsi bir çox Türk xalqlarında bu gün də yaşamaqdadır. Toy zamanı qız evindən qiymətli əşyaların yağma edilməsi və yaxud gəlinin başına səpilən nəsnələrin (pul, şirniyyat, meyvə qurusu və s.) qapılaraq götürülməsi, Anadoluda bu gün də görülməkdədir. Bir kimsə bu adətə qarşı çıxa bilməz, çünki "yağma, qonaqların haqqıdır, geri alına bilməz." (**29, s.101**) Çünki "bu qaçırma işi hadisəyə bir növ yağma, qapışma rəngi də verər." (**29, s.101**) Bir sözlə, "İnan, bir çox müasir Türk xalqlarının toy ənənələriylə əlaqədar təbirləri, pədərşahi ailə təşkilatının egzogami qanunu çərçivəsində qız yağma etmək yoluyla qurulduğunu açıqca göstərdiyini ifadə edər." (**29, s.101**) Bununla yanaşı, **"**Qırgızların "Manas" dastanında əski üsulun xatirəsi olaraq yağma və qaçırma yoluyla evlənmədən söz edildiyi kimi, barış yoluyla, yəni "kalın" ödəyərək evlənmə də təsvir edilməkdədir." **(11, s.344)** Kalın ödənincə qızın atasının kürəkənin ailəsinə bir ziyafət vermək adəti də Yakutlara xasdır.

Türk xalqlarının toy ənənəsində yeni ailə həyatı quran gənclərə "*ailə malı*"ndan ("*ailə sığortası"*) ayrılan pay "*başlıq" ("kalın", "kaim")* olaraq dəyərləndirilir. Bu səbəbdən "*başlıq markası"*yla bağlı qəbul olunan qaydalar, "Türk mədəniyyətinin evlilik ənənələri içərisindəki ən əski və funksional tətbiqlərinin başında gəlməkdə" (**10, s.50**) idi. Ayrıca qeyd etmək lazımdır ki, "Qırğız və Başqırdlarda, "kalın" qarşılığı istifadə edilən "süyek atma" termini, çöldən evlənməyi ifadə edər. "Süyek", "sümük" deməkdir. Yakut ləhcəsindəki "sulu" sözü və digər Türk ləhcələrindəki "yulug" kəlməsi, qız qaçıran soyun, boyun, cəzadan xilas olması üçün verilən mal olub, tam qarşılığı "diyet, qurtuluş akçesi, fıdye-i necatdır." (**19, s.32**)

"*Kalın*" adəti ilə bağlı Mahmud Kaşğarlı da araşdırmalar apararaq, onları incələməyə çalışmışdır. "Kaşğarlı Mahmuda görə "kalın" adətinin Orta Asiya, Qazax, Qırğız və Özəklərdə tətbiq olunduğu görülməkdədir. Kalın sözü Göytürk kitabələrində "kalın"; "Dədə Qorqud"da "kalınlıq" şəklində ifadə edilməkdədir. Orta Asiyadakı Türklər arasında da kürəkənin ailəsi qız tərəfinə müəyyən bir miqdar başlıq (Qalam və ya Kalıng) ödəyərdi. Oğlan tərəfi heyvan verərək, qız evinin xidmətində duraraq, ya da qızlarını o ailəyə verərək kalın xərcini qarşılayar."Əski Türklərdə qaim, qızın təhsili üçün xərclənən xərclərə qatılma üsulu olaraq sayılardı." (**33, s.126)** Mahiyyət etibarı ilə eyniyyət təşkil edən "*kalın*"la "*başlıq*", çox cüzi cəhətləri ilə bir-birindən seçilir: "Kalın, daha çox atası sağ ikən oğulların evlənə bilmələri üçün verdiyi paydır. Başlıq isə, evlənmə əsnasında qız ailəsinə verilən bir "hədiyyə" görünüşündədir." (**19, s.66**)

Toy ənənəsində "*çarpaz evlənmə" ("dəyiş-düyüş*") üsuluna önəm verən Qırğız Türklərində evliliyin əsas cəhəti, başlıq pulunun alınmaması ilə bağlıdır. Bu, toy xərclərinin sıxıntı yaratmaması baxımından hər iki tərəfin qarşılıqlı razılığı əsasında həyata keçirilir. Məlumdur ki, əski Türk ailəsində evlilik dönəmində övlada atadan pay düşməsi ənənəvi xarakter almışdır. Övladlar arasında bərabər şəkildə bölünən bu "*pay*"ın qıza düşəni "*cehiz*", oğlana qalan bir hissəsi isə "*kalın*" olaraq dəyərləndirilməkdədir. Burada məqsəd, gənc ailənin möhkəm təməllər üzərində qurulmasına, onun bölünməzliyinə xidmət etməkdən ibarətdir. Başlığın verilməsi ilə bağlı fikirlərin birmənalı qəbul edilməməsi ilə bağlı ən obyektiv fikri, Ögel söyləmişdir: "Ögelə görə, başlıq pulu kişinin qadını boşamasına və qadının da istədiyi zaman qaçıb ata evinə getməsinə maneə törədən bir depozit olaraq verilər." (**15, s.3**) Əslində, gəlinin dəyərinin ona verilən başlıq ilə ölçülməsi halları ilə (bu hal daha çox Xəzərlərə məxsusdur), bir çox Türk xalqlarının evlilik ənənəsində də qarşılaşırıq. Başlığı və cehizi

müqəddəs sayan əski Türklər üçün "başlıq, ... süd haqqı və gəlinin dəyəridir. Başlığı verilən gəlinlər, kişi ailəsinin bir üzvü mövqesinə yüksələr və ailə fərdləri arasında bərabər bir mövqeyə sahib olar." (**1, s.116**) Qeyd edək ki, "başlığın çeşidli biçimlərdə "*mehir", "kalın", "süd haqqı", "drahoma*" kimi fərqli funksiya daşıyan formaları da mövcuddur. "Başlıq sözü bütün Türk dillərində ortaq və çox əski bir sözdür... Süd haqqı isə... anaya süd haqqı üçün verilən hədiyyə" (**15, s.2**) sayılır. "*Drahoma*" ənənəsi Türk xalqlarının toy ənənəsində gəlinin ailəsi tərəfindən oğlanın ailəsinə verilən pul, mal və sairlə bağlıdır. Onu da qeyd edək ki, Avustraliyada qanun halını alan "*başlıq*", daha çox Türkiyədə yaşayan yunan, erməni, musəvi və rum əsilli ailələr üçün də xarakterik olmuşdur. "XIX əsrdə Balkanlarda yaşan iki cəmiyyət olan Rumlar və Arnavutların bir-birindən fərqli başlıq pulları tətbiqləri vardır. Bunlardan Rumlar, oğlan tərəfinə "drahoma" adında başlıq pulu ödəyərkən, Arnavutlarda tam tərsinə, başlıq pulunun qız tərəfinə verilməsi əsas götürülürdü." (**28, s.319)**

Türkmənlərdə nikah müxtəlif şəkillidir: "*Alış-veriş", "beşik kəsmə" ("beşik kertme"), "gəlin qaytarmaq", "məsləhətləşmə*" və s. Bunlardan ən yayğın olanı "*alış-veriş*"dır; toy xərclərinin sıxıntı yaşatmaması üçün ərə gedən qızın, ər evindən ata evinə gəlin olaraq göndərilməsi adət halını almışdır. "*Gəlin qaytarmaq*", toydan iki və ya üç gün sonra icra olunan Türkmən adətlərindən sayılır. Adətə görə, ata evinə dönən gəlin, bir müddət burada öz cehizini hazırlamaqla məşğul olur. Toy sahibinə maddi və mənəvi dəstək vermək məqsədiylə bir araya gələrək məsləhətləşmək ("*məsləhətləşmə*") - birlikdə yardım etmək cəhdi, Türkmən kültüründə yer alır. Valideyinləri tərəfindən kiçik yaşlı uşaqların bir-birinə ad edilməsi, "*beşik kəsmə*" ilə müşaiyət olunur. "Qəhrəmanlar yetişib evlilik çağına gəldiklərində ailələri arasında edilən bu müqavilədən xəbərdar olarlar və gərəyinin edilməsini istəyərlər, ancaq çox zaman tərəflərdən biri verdiyi sözdən dönər və razılaşmağı pozar. Bundan sonra qəhrəmanların ayrılıq müddəti, bir-birlərinə qovuşa bilmək üçün verdikləri mübarizə dövrü başlar." (**16, s.123**) "*Beşik kəsmə*"ni, əsasən erkən evliliklə bağlayan və "qızların belə erkən evləndirilmələrinin səbəbi"ni, "kişilərin kiçik gəlinləri seçmələri, qız tərəfinin başlıq almaq arzusu, erkən evlənmənin qızın bəkarətini garantiyə alması və başqasına qaçmasının qabağına keçilməsi" ilə bağlayan İngilis yazar Elizabet E.Baco bildirir ki, "Qazaxlarda, ... zəngin ailələrdə oğlanlar, on iki ilə on beş yaşları arasında, qızlarsa daha buluğa çatmadan evləndirilərdi." (**5, s.40**) Yazar onu da qeyd edir ki, "başlıq o qədər yüksək idi ki, çox hallarda ödəmə nisyə ödənirdi." (**5, s.40**) Başlığın kreditlə ödənilməsi şərti Altaylarda məxsus olsa da, əsasən "qız qaçıranlara, başlığı nağd olaraq ödəmə şərti qoyulmuşdur." (**11, s.103)**

Qıpçaqlarda isə qızını gəlin görməyə qərar verən qız anası (“*esi*”) qızın atası (“*chain*”) ilə, yalnız oğlan tərəfindən istədikləri başlıq pulunu (“*juluv”, “mihir”, “kalın”*) aldıqdan sonra “*toy” (“asar*”) tədarükünə başlar.

Bir çox Türkdilli xalqların dastan ənənəsində evlilik üçün “*başlıq*” və ya “*kalın*”ın bir bədəl olaraq ödənilməsi diqqət çəkir. “Ayrıca, “Dədə Qorqud” hekayələrində yer alan bir dastanda da erkəyin, qızı almaq üçün göstərdiyi igidliyin başlıq olaraq sayıla bildiyinə dair bir qisim iştirak etməkdədir. Əlavə olaraq, qız qardaşını istəyənləri öldürən Dəli Qacar isə Dədə Qorquddan çəkinincə, yerinə yetirməsi haradasa qeyri-mümkün olan şeyləri kalın olaraq istər. Məsələn; “maya görməmiş min buğra, heç kısrağa aşmamış min ayğır, qoyun görməmiş min qoç, quyruqsuz qulaqsız min it…” Bu istənənlər, hekayəni cazibədar etmənin yanında qız almanın da çətinliyini ifadə etmək üçün bir işarə ola bilər. “Battalnamə”də də başlıq istənilməsi faktlarına rast gəlinməkdədir. Belə ki; maddi gücü olmayan Battal, Əmir Ömərin qızını istər və əmirin arvadı da onun qarşılaya bilməyəcəyini bildiyi üçün Hindistanda olan ağ fil və üzərindəki qızılları, yüz dəvə və dörd yüz Ərəbi atı başlıq olaraq Battal Qazidən istəmişdir.” (**15, s.**3) Həmçinin, “Dədə Qorqud” Kitabındakı Bamsı Beyrək boyunda da qız üçün bəzi şərtlərin qarşıya qoyulduğunu görürük. Bir az şişirdilmiş istəklər olsa da, bu istəklərdə başlıq ənənəsinin təsiri vardır. Bamsı Beyrək, göbək kəsdisi Banuçiçəklə evlənmək istədiyində Banunun agabəyi Dəli Qacar, bacısı üçün “Min buğda gətirin ki, maya görməmiş ola, min daha ayğır gətirin ki, heç qısrağa aşmamış ola, min daha qoyun görməmiş qoç gətirin, min də quyruqsuz qulaqsız it gətirin, min daha püre gətirin” deyər.” (**16, s125**) “Manas” dastanında isə “Manas, Kanıkeylə evlənmək istədiyində qız üçün müxtəlif mallar istənər. Dastanda buna “kalım” adı verilər: “on oyuğu dolduracaq/ Yılkıyı sürüb gəl! deyib/Qırx oyuğu dolduracaq/Qoyunu sürüb gəl! deyib/Üz oyuğu dolduracaq/Sığırı sürüb gəl! deyib/Dörd oyuğu dolduracaq/Dəvəni sürüb gəl! deyip/Artıq malı salmazmı? /Taparsa sürüb gəlməzmi?”. Görüldüyü kimi Manasdan qıza qarşılıq olaraq onlarla qoyun, at və dəvə istənmişdir. Manasın ailəsi “qalam/başlıq” olaraq istənən heyvanları qızın atasına apararaq Kanıkeyi gəlin olaraq alar.” (**16, s.125**) Heç şübhəsiz ki, hər dövrün özünə uyğun evlilik şərtləri mövcud olmuşdur və bu şərtlər, zaman-zaman evlilik həyatına daxil olan qızın da öhdəsinə müəyyən vəzifələr yükləmişdir. Yəni, ehtiyac duyulduğu halda qızdan, oğlan kimi at minib, qılınc qurşanılması istənilmişdir. “Dədə Qorqud” da “Qanturalı, yoldaşının haradasa özü kimi bir alp olmasını istəməkdədir. Qanturalı, “Baba, mən

yerimdən durmadım, ol durmuş ola, mən qara qoç atıma minmədin, ol minmiş ola, mən qanlı kafir elinə varmadım, ol varmış mənə baş getirmiş ola" deyər." (**16, s.124**)

"Evlənmə"də yer alan "*monogami*" ("*tək arvadlılıq"*), "*poliqami*" ("*çox arvadlılıq"*), "*lavirant" ("qardaş arvadı ilə evlənmə"*), "*sorot" ("baldızla evlənmə"*) və s. kimi eviliklərin içində Türk ailə həyatı üçün ən xarakterik olanı "*monogami*"dir. Olivierə görə, "qanun, hər nə qədər Müsəlmanlara dörd qadınla evlənmə haqqı tanıyırsa da, Türklər arasında, bir qadından çoxu ilə evlənənə az rast gəlinər. Bunun bir çox səbəbi vardır: hər şeydən əvvəl çox bahalı bir işdir, eyni hərəmin içində dolana bilməzlər, şikayətləri və ya tələbləriylə yoldaşlarını böhrana salarlar. Bundan əlavə, Türk qadınlarının böyük qisimi evlənərkən yoldaşlarına,... başqa qadınlarla evlənməmələrini şərt qoyarlar." (**24, s.484**) Bundan əlavə, "Türklərdə məşhur olan "tək qadınla evlənmə, yəni monogomi"nin olduğunu ifadə edən Bahaəddin Ögəl, bu vəziyyətin yanında kumalıq sisteminin də olduğunu və hətta bu kumalar arasında şəxsən Çin İmperatorunun qızlarının da olduğunu ifadə etməkdədir." **(6, s.8)** "*Kuma*", əski Türk ənənəsinə görə ikinci dəfə evlənmək haqqına sahib olan kişinin "*baştaxtı*"ndan sonrakı qadınına verilən addır. Hun və Göytürk ənənəsində əri öldüyü halda kumaların ögey oğlu ilə evlənməsi yasaqlanmamışdır. Ölən qardaşın arvadı ilə evlənmək haqqı da əski dövrün evlilik ənənəsi ilə bağlıdır**.**

Evlilik ənənəsi, özündə oyun, əyləncə və zövq anlayışlarını barındırır. Bir çox Türk xalqarının toy ənənəsində bədən oyunları və yarışlar önə çıxdığı halda, digərlərində söz hünəri və söz yarışı özünü daha qabarıq göstərir. Oyun adətlərinə Özbəkistan və Azərbaycan toylarında sıx rast gəlinir. Söz hünəri isə daha çox Qazax, Qırğız və Qaraqalpaqlarda görünür. "Qaraqalpaq toylarında üç böyük adət gözə çarpar: Birincisi toyu təsvir etmə adəti. Bu, xalq arasında çox yayğın olan "*Toy baslav*" (*toya başlamaq)*dır. Bunu bir şair və ya axtarıcı ortaya çıxıb toyun veriliş səbəbləriylə və ya özəl şeirlərlə bəyan edər." (**27**) Evliliklə bağlı sevdaların manilərlə ifadə edilməsi, talib olduğu qıza oğlanın öz duyğularını, "*xına gecələri*"ndə əlinə bağlama (saz, qopuz) alaraq bəyan etməsi, əski toy adətlərindən sayılır. Bağlama ilə bağlı mani söyləništlərinə toylarda da rast gəlinir. Əskidən "Bəzi toylarda mani atışmaları şəklində yarışmalar təşkil edilər; itirən, bağlamanı divara asıb gedərdi." (**37)**

Manilərlə qız istənilməsi adəti də əskilərə dayalıdır. Oğlan tərəfi elçiliyə, əski vaxtlarda usta maniçiylə gedərdi. Oğlan tərəfinə verilən cavabın müsbət və ya mənfi olması usta maniçiylə qız tərəfin maniçisinin *"dialoq-atışması*"ndan asılı olardı. Müəyyən qaydalara tabe olan bu "*dialoq-atışma"*larda "Mani atılan adamın diqqətini çəkə bilmək üçün mani atan, göz-qaş işarəsi edər... Mani deyilərkən səs-

küy salınmaz; söyləyən hüzünlüdürsə hüzünlü, nəşəliydisə nəşəli bir rəftar geyinilər."(**37)** Dinləyici ilə maniçi alış-verişinin ana ünsürləri fərqli modellərdə diqqət çəkir. "Karl Bühlerin modelində əlaqənin ana ünsürləri bunlardır: 1. Verici, 2. Alıcı, 3. Dinləyiciyə xitablar, 4. Vericinin özünə göndərmələri, 5. Vericinin zahiri dünyaya göndərmələri, 6. Obyektlər və qəbullar. T.Sebeokun modelində isə; 1. Verici/danışmaçı, 2. Alıcı/dinləyici, 3. Dinləyiciyə xitablar, 4. Vericinin özünə göndərmələri, 5. Vericinin dış dünyaya göndərmələri, 6. Objelər, qəbullar. T.Sebeokun modelində isə; 1.Verici/danışmacı, 2. Alıcı/dinləyici, 3. Göndərmədə tapılılan, 4. Kodlar, 5. Mesaj, 6. Kanal iştirak etməkdədir. Vürbachın "Küçə Baladları Külliyyatı"nda gəlişdirdiği araşdırma modelində bu ana ünsürlər iştirak etməkdədir: 1. Balad yazıçısı və satıcısı, 2. Dinləyici/oxucu, 3. Balad yazarının özünə etdiyi göndərmələr, 4. Dinləyiciyə edilən xitablar, 5. Zahiri dünyaya göndərmələr, 6. Kanal, 7. Baladın mesajı, 8. Dilə aid vəsait." (**33, s.2790**) Tək xanadan - dörd misradan və yeddi hecadan (hecaların sayı arta da bilir) ibarət olan mani (melodiyalı və melodiyasız olaraq iki qismə bölünür), Türkdilli xalqlarda "bayatı", "mahnı" (Azərbaycanlılar), "şiğir törö" (Başqırd Türkləri), "hoyrat" (İraq Türkləri), "çıng", "çinik", "çinig" (Krım Türkləri), "cır" (Kazan və Cənubi Krım Türkləri), "koşuk", "aşıla", "törtlik" (Özbəklər), "tört sap" (Qırğızlar), "aytıspa", "qayım öləng" (Qazaxlar), "şığır töri" (Tatarlar) "şın, çın" (Nogaylar), "rubayı, rubagi" (Türkmənlər), "törtlik" (Uyğurlar), "martifal – diachronic" (Yuqoslaviya (indiki Kosova - M.M) Prizren Türkləri) olaraq işlədilir. "Deyilən mətnin adına", "söyləyən kişinin vəzifəsinə" və "istifadə edilən ritm alətinə" görə dəyərləndirilən "maniçilər, deyilən mətnin adına görə, türküçü, maniçi, deyişçi; söyləyən kişinin vəzifəsinə görə, bayraqdar, efe başı, haseki, gözətçi, cazgır; icrada istifadə edilən ritm alətinə görə, dümbələkşi, cümbüşçü, misçi, barabançı, dəfçi, sinici, nimçəçi, çanaqçı və s. adları ala bilməkdədir." (**31, s.1**17) "*Mani söyləmə*" ənənəsi ilə bağlı "Həsən Dalayar, "Kənddə, toy mərasimləri üçün oxu paylayan oxucular, evləri dolaşıp insanlara xəbər verər, toya çağırar. Ev sahibi də bu oxuculara köynək, corab, dəsmal və s. verər və toyunuz xeyirli olsun, deyər. Əskidən bu oxucular, bir mani söyləyərdi; amma indi deyilməz oldu" deməkdədir." (**37)**

Suriya Türkmənlərinin toy adətləri sırasında yer alan "*bayraq tikmə",* demək olar ki, bütövlükdə manilərlə icra olunar. Toya bir həftə qalmış gənc qızlar, davulçuların müşaiyəti ilə bayraqdarın evinə yığışar, nəğmələrin və manilərin müşaiyəti ilə "*bayraq tikmə*" mərasiminə başlayarlar. Bayrağa çiçəklərlə naxış vurulduqdan sonra, bayraqdar onu toy sahibinə təslim edər. Toy sahibi əvəzində bayrağın önündə əyilər, üç dəfə öpüb alnına qoyduqdan sonra onu evinin damına sancar. Bayrağın öz

yerinə sancılması, yaxın günlərdə həmin evdə toyun olacağına işarədir. Toya bir gün qalmış isə, evlənən cütlük üçün "*xına gecəsi*" keçirilər. Qız evində olduğu kimi, oğlan evində də həmin gecə sazlı-sözlü müsiqinin müşaiyəti ilə gənclər oynar, nəğmələr oxuyar, manilər söylərlər. Uzun və qısa hava üstündə oxunan bu nəğmələrin ifası zamanı gənclərin, müəyyən məqamlarda "*hinnekey yaba, hinne" ("hinnikey"*- *"xına*") deyərək ifaçıya dəstək verməları, mərasimə bir başqa özəllik qatar. "*Oğlan xınası*"nda "*cahal başı*" deyilən sağdiş və cahallar (subaylar), əllərində xına nimçəsi oynayar, evli kişilərdən bir istəklərinin olub-olmadığını sorarlar. İstəyə bağlı, ya türkülər söylənər, ya da yumor xarakterli müxtəlif əyləncələrə yer verilər. Tələblər ödənilməyəndə isə icraçının üzünə un sürtülər, ya da eşşək kimi belinə minilər.

Evlilik ənənəsində "*bayraqdar*" adı verilən şəxs (yaşı 25-dən yuxarı, yalnız subay oğlanlar), toyun idarə olunmasında xüsusi rol oynayar. "*Bayraqdar*"lıq, əslində bir vəzifədir və bu vəzifənin təyinatı, tək toy sahibinə aiddir. Toy sahibinin üzgörənlik edib, bilərəkdən bu vəzifəni öz yaxınlarına həvalə etməsi, qəbul edilməz sayılar. "*Toy*"un repertuarı, düyündən öncə, bayraqdarın iştirakı ilə tutular. Toy zamanı bayraqdar, davulçuların və zurnaçıların müşaiyətilə gələn qonaqları qarşılar. Uzaqdan gələn qonaqları qarşılamaq üçün bayraqdar, musiqiçilərlə birlikdə onların pişvazına çıxar. Qonaqlar yaxınlaşanda çalğıçılar susar, mani söylənişi başlar. Bu məqamda manilərin yüksək səslə və uzadılaraq söylənməsi şərtdir. "*Salamlaşma*", manilərin söylənişi ilə eyni vaxtda icra olunar. Salamlaşma zamanı bayraqdar, yardımçısı ilə qol-qola girər; bu, "*bayraqlar kimi olmaq*" anlamına gələr. Gələn qonaqlar da onlar qoşulunca, bu duruşla "*hilal*" rəsmi cizilər. Salamlaşma bitib, meydan musiqiçilərə verilincə isə, oyun başlar. Oyundan sonra qonaqlar, bayraqdarın müşaiyəti ilə düyün evinə yol alar. Dəvətlər, bəzən müəyyən şərtlərin yerinə yetirilməsi ilə qəbul olunar. Yalnız şərtlər yerinə yetirildikdən sonra qonaqların düyün evinə yola salınması baş tutar. Bayraqdar xüsusi geyimə sahib deyil, amma ətrafdakılardan seçilmək üçün boynunun ön hissəsinə və yaxud da qolunun yuxarı hissəsinə yazma və ya dəsmal (kürdələ) bağlayar.

Gəlin almağa getmək "*toy yürüşü*" ilə müşaiyət olunar. Öndə gənclərin yer aldığı bir böyük dəstə ilə gəlin almağa gedən bayraqdar, yolboyu əyləncə xarakterli yürüşə rəhbərlik edər. Yürüş zamanı davulun müşaiyəti ilə gənclərin müxtəlif oyunlar oynaması, təqidlər çıxarması, anlaşılmaz manilər söyləməsi şərtdir. "*Toy evi*"nə çatar-çatmaz səslər daha da yüksələr, duyğu yoğunluğu artar. Bayraqdar, əlindəki bayrağı qız evinin qapsından içəri uzadar: istək mani söylənilməklə ifadə edilər. Bayrağın ucuna

hədiyyələr taxıldıqdan sonra, qızın sagdişi doqqazda görünər. Manidə mətn dəyişməsi yengənin gəlişi ilə gerçəkləşər. Kənd cavanları toy karvanının önünü kəsər, hədiyyələr alınmadan yürüşün davam etdirilməsinə imkan verilməz. Xəzərlərdə toy, daha çox qız evinin haqqı sayıldığından, mərasim qız evindən başlayıb, oğlan evində bitər**.** Ata evindən çıxan qızın belinə, bəzən də ayaqqabısının içinə buğda və ət qoyulan şərf bağlanar. Bu adət, təzə gəlinin ayağının düşərli olması inancına bağlıdır. Türkmənlərdə ər evinə qədəm basan gəlin, "*ayağı ruzulu olsun*" deyə öncədən hazırlanmış, birində un, digərində duru yağ olan iki daşın yanına gətirilərək, sağ əli yağa, sol əli isə una batırılar. Bir başqa adət isə, yengənin ("*gelnece – gelen- ece")* kürəkən evində öz mövqeyini qoruyub saxlamaq cəhdi ilə bağlıdır. Belə ki, "gəlini oturtmaq üçün evdə hazırlanan küncə yengə oturür və evin əski gəlini olaraq evini qorumağı təkid edər bir şəkildə qalxmağı rədd edər. Yengə ona verilən bəxşişlə yola gətirilir və yerini gəlinə verir." **(14, s.78)**

Müxtəlif Türk ləhcələri baxımından usta mani söyləyənlərə "*maniçi*" deyilir. "Boratav, meydan şairləri və mani düzən aşıqlardan başqa bütün bu maniçiləri adsız aşıqlar olaraq tanıtmaqda və bunların çoxunun qadınlar olduğunu bəlirtməkdədir" (**34, s.112**) Fikrimizə qüvvət olaraq, "Döndü Kiçik, "əskidən xına gecələrində qadınlar bir yerə toplanılar, dairə qurulardı. Orada olan, yaxşı mani söyləyən bir yaşlı qadın ortaya oturdulardı və bu yaşlı qadın, gənc qızın birinə bir mani atardı. Gənc qız da eyni mövzu istiqamətində başqa birinə mani atardı. Maniyə mani ilə qarşılıq verməк lazımdır. Verə bilməzsənsə cəmiyyətdə rəzil olarsan. Atışmada kim üstün gəlirsə, yaşlı qadın ona bir hədiyyə verərdi. Bu, beləcə uzanar gedər; toy yerinə gələnlər əyləndirilərdi" deməkdədir." (**37**) Qeyd etmək lazımdır ki, zaman-zaman "mani icraçılarının yer, zaman, iştirakçı baxımından diqqətə çarpan fərqlərin ortaya çıxması səbəbiylə, cinsiyyətləri baxımından bir təsnif etmə içərisində araşdırılması uyğun hesab edilmişdir." (**31. s117**) Yaş və cins fərqlilyi gözlənilməyən maniçi ("*maniçi", "mani yandırıcı", "maniçi başı"*) üçün hazırcavablıq və gözəl səs sahibi olmaq şərtdir. Əskidən mani söylənərkən çalğıdan istifadə olunmasa da, xına gecələrində nimçəyə və darbukaya zaman-zaman ehtiyac duyulmuşdur. Əslində "İnsanların ortaq duyğusu"na yönəlik "manilər uyğun hər ortama görə söylənə bilir və söylənilən ortam və söyləyicilərin ruh durumu manilərin məzmununu bəlirlər." **(37)**

"*Hənk*", düyünlərdə ən çox oynanan oyunlardan sayılır. Soyuq havalarda evin içində oturaq halda, isti aylarda isə baxçada dairəvi şəkildə manilərlə müşaiyət olunan bu qaşıq oyunu, tamaşaçıların ortasında iki və ya dörd nəfərin iştirakı ilə gerçəkləşir. Oyun zamanı bakırı tutanın (*müşaiyətçi*) və

bakırçının (*mani icra edən şəxs*) iştirakı ilə "duruma görə, oturaraq, ya da ayaqda bakır çalınıp mani söylənə bilir." (**31, s.119**) Toy ənənəsində qadınlar, ilk vaxtlar "melodiyaların səsləndirilməsi əsnasında müşaiyətçi çalğısı olaraq gündəlik həyatda istifadə etdikləri çeşitli qablardan" - ləyən, tava, nimçə və bakırdan (bakır – mis qazana bənzər məişət əşyası) faydalanmışlar. "İcraçıların bu ritm alətlərini çalmağı bilən şəxslərdən olması, mani icraçılarının önə çıxan bir başqa xüsusiyyətidir." (33, s.2786) Nimçədən ritm aləti olaraq istifadə etmək ənənəsində, kişilər də yer alır. Bu maniçilər, kənd toylarında metaldan düzəldilən dairəvi nimçəni mütəmadi şəkildə əllərində fırlatmaqla səsin daha geniş ərazilərə yayılmasına çaba göstərmişlər. "Honkoya görə,.. Bir türküçü türküsünü sadəcə özü üçün deyil, eyni zamanda dinləyiciləri üçün də söylər. O, jenerjik (fransızca "generique"; bilgiləri içinə alan nəsnə - M.M) və struktur özəllikləri, melodiyanı, stili, mimikanı, və daha bənzər nə qədər şeyləri icra edər. Modelləri onun ağlındadır. Sənətçi bunları icra edərkən, güclü bir ənənə təqibçisi və dinləyiciləri ilə arasındakı hisləri dilə gətirən bir şəxsdir." (**30, s.127)**

Toylarda türkü söyləyərək rəqs etmək ənənəsi ("To*y Türküləri" və ya "Ölənlər", "Ülen", "Yar-yar", "Leeran"*) əskidən mövcuddur. Türk xalqlarına məxsus bu ənənədə, məna-məzmun, forma-icra baxımından bəzi bənzər cəhətlər ortaya çıxmaqdadır. Oturaq həyatın meydana gətirdiyi "*Ölənlər*", xalqın köçəri seqmentində nadir sənət növü olaraq görülməkdədir. "*Ölənlər*", toy qabağı qız evində yalnız qadınlar tərəfindən icra edilir:gənc oğlanlar seyirçi olaraq qatıla bilirlər. Mahnıya bir qadın başlar, ardınca bütün gənc qızlar orta səslə, xor halında ona qoşular. Evdə başlayıb, toyun olduğu yerdə davam etdirilən bu mərasim, kəbin kəsildikdən sonra "*kəmər həll etmək", "çəkmə çıxarmaq*" kimi adətlərin yerinə yetirilməsinə qədər davam edir. "Toy Türkülərinin" qitələri axıcı və ahənglidir, xalqın danışıq dilinə yaxın olan sözlərdən və söz öbeklərindən ("öbek"; söz qrupu - M.M) ibarətdir. Ona görə çox tez yaddaşda qalar." (**12)**

Mani söylənərkən rəqs etmək adətinə Özbək toylarında da rast gəlinir. Əski zamanlardan günümüzə gəlib çıxan, iki və ya üç gün davam edən "*Tepena"*, malkarlıların sevdiyi rəqs növüdür. Ancaq kişilər tərəfindən icra edilən "*Tepena*"da öncə rəhbər seçilər, sonra hər kəs dairəvi şəkildə ocağın ətrafında dövrə vuraraq dönər. Əvvəlcə "rəqsin lideri, mahnının birinci misrasının, dairə quranlar da ikinci misrasını söyləyərlər və bu davamlı təkrarlanır. Nəğməni söyləyənlərin səsləri ilə birlikdə uyğunlaşma içində çıxıb mahnı ilə rəqs də bir-birləriylə uyğunlaşma içində olsa, həm gözəl, həm də qulağa gözəl gəlir." (**26**)

Manilər daha çox "*gəlin-qız", "kiçik nişan", "yaylıq alıb götürmə*" mərasimləri zamanı söylənir. "*Gəlin-qız*"dan təxminən on gün öncə icra edilən "*yaylıq alma*"da söylənən manilər, "*qaşıq oyunu*"nun müşaiyətilə gerçəkləşir. Qıza yaxınları tərəfindən verilən hədiyyələrin yüksək səslə tanıdılmasından sonra oxunan manilər, adətən rəqslərlə müşaiyət olunar. "*Xınayaxdı*"da ağı tərli manilərə də rast gəlinir ki, bu zaman "*tefçi*"lər, öz yardımçılarının (bakır tutucusu) köməyi ilə ritm tutaraq üzü tülbəndli ərə gedən qızın ağlamasına cəhd göstərərlər. Mərasim başlar-başlamaz "... qadınlar toplanaraq kişilərin olmadığı xına evinə girərlər. Gəlin olacaq qız, bölgəyə xas ənənəvi xına paltarı geyər və qızın üzü çevrə, tülbənd və s. bir örtüylə bağlanılar. Bu sırada qız və ətrafındakı yaxınları müəyyən bir melodiyayla deyilən ağı tərzindəki manilərlə ağladılar. Qız ağlamasa belə, ağlayırmış kimi etməlidir. Hamı bir ağızdan deyilən, iki, ya da üç qadının söylədiyi manilər müşaiyətində bir qabın içində yanan şamlarla qızın ətrafında dönülər."(**31, s.118**)

Yerlərə görə dəyişik biçimdə oynanan "ağır oyun" - "*dönmə oyun", "gecələmə", "eloğlu"* - *"çökmə oyun*" xınayaxdı mərasimi üçün xarakterikdir. İki və yaxud dörd qadın, mövzu baxımdan bir-biri ilə əlaqəsi olmayan mani mətnlərini qaşıqların ritmik səsiylə (ritm alətindən də istifadə olunur) bir yerdə söyləyərkən (mövzu bütünlüyünü əldə etmək usta maniçilərə xasdır) "sağ əllərini və gövdələrini önə doğru iki dəfə əyib, üçüncüdə öz ətraflarında bir dəfə dönərlər." (**31,s.120)** Sürət ritminin fasiləsiz şəkildə, yüksələn xətlə inkişafı "*ağır oyun"*un bitişindən xəbər verir. Melodiyaya uyğun olaraq ayaqların yerə vurulması, fərqli melodiya və ritm dəyişikliyi fonunda manilərin oxunması "*gecələmə*"dən xəbər verir. Ayaqları iki dəfə yerə vurduqdan sonra tərəfmüqabillə yerdəyişmə, "*mesaj ötürmə*" sayılır. Oyunun bu mərhələsində "gənc bir qız, oyun oynadıqdan sonra, o qızı istəyən bir kişinin anası, ya da bir qohumu oyuna qalxmaq üçün qaşıqları istəsə, bu istəkdən o qızı oğullarına istədikləri mənası çıxmaqdadır. Əgər oyunçu qız, özündən sonra oynayacaq kişilər olaraq qaşıqları istəyənlərə qaşıqları versə, oğlan tərəfi o qız üçün elçi gedər. Oyunçu qız, əgər qaşıqları verməzsə, söz mövzusu kişini istəmir deməkdir və bu vəziyyətdə mesajını tam olaraq verə bilmək üçün qaşıqları yaşlı bir qadına təslim edər." (**31,s.125**)

Son olaraq onu da qeyd etmək yerinə düşər ki, "Divani-Lüğati-it Türk"də toy sözü "ordu kurağı, ordu qərargahı, ilac yapılan bir ot:çanaq yapılan çamur; toy kuşu" anlamlarında istifadə edilmişdir... Kutadgu Biliğdə toy sözü həmən eyni anlamlarda keçər: "toy kuşu; xalq; topluluq; ordu qərargahı." (**3, s.39**) Əski ənənədə konqres və ya qurultay xarakterli ənənəvi "*toy"*lara da rast gəlinir ki, bu özünü daha

çox dastanlarda ifadə etdirir. "Şimal-şərq Sibir Türk qrupu olan Sahələrin (Yakut) dastanlarında da toyların "orta dünya üzərində davam etdirilən dinc və sakit bir həyatın ən əhəmiyyətli göstəricilərindən" biri olduğunu ifadə edən araşdırmaçı Mətin Ergun, Sahə dastanı Ər Sogotoh təməlində toyların alpların doğumları, alpların Üst Dünyadan Orta Dünyaya enişləri, evlilikləri və A yıı Aymaga insanlarına qarşı əldə etdikləri zəfərləri qeyd etmək üçün edildiyini ifadə edər." (**6, s.14**) İdeoloji məqsədlərə xidmət edən toylar, cəmiyyətin siyasi, iqtisadi və hərbi məsələlərinin həllinə yönəlik işlərində əhəmiyyətli rol oynayır. "Başlanğıcda dini mahiyyətdə bir törən olan və daha sonra dövlət məclisini oluşturan toy haqqında İbrahim Kafesoğlu belə der: "Toy, bütün Türk ləhcələrində və Türkcədən intihal etdiyi digər dillərdə doğrudan doğruya – məclis, toplantı - mənasına gəlməkdədir və dövlətdə bir müəssisə adı olaraq sonrakı əsrlərdə ortaya çıxıb zamanla dilimizə də yerləşən Moğolca "qurultay" sözünün Türkcə qarşılığıdır."(**3, s.40)** "Evliliyin muadili olaraq" (**42, s.179**) düşünülən və evlənmə aktı ilə müşahidə olunmayan bu "toylara "Kitabi - Dədə Qorqud"da, eyni zamanda arxaik tipli Sibir, Altay-Sayan dastanlarında da rast gəlinir ki, bu toylar günümüzdəki "*düyün*" mənasında işlədilmişdir.

Göründüyü kimi mifologiyada "*yeni dünya", "yeni həyat", "yeni yuva", "isti ocaq*" mənasını verən "*Toy",* Türkdilli xalqlarının kültür ənənəsində tipoloji teatr modeli rolunu oynamaqdadır. Karnaval estetikasına əsaslanan və çoxlaylı epizod bolluğu ilə seçilən bu teatr modeli, oyunlar, dialoq-atışmalar, rəqslər, mani söylənişləri və s. ilə zəngindir.

## Ədəbiyyat siyahısı

### Türkcə:

1. Abdullah Mohammadi. Hazara Türklerinin Halk İnanclarında doğum, evlenme ve ölüm. Milli Folklor, 2015, Yıl 27, Sayı 105, s.116
2. **Adil Şan.** Suriya **Türkmenleri: Kültür, Gelenek ve Görenek. Orsam tutanakları. Ortadoğu Türkmenlerİ Sempozyumu. Ortadoğu Stratejik Araştırmalar merkezi.No: 35, eylül 2014, s.227**
3. Ali Duymaz. Oğuz Hakan destanından Dede Korkuta Toy geleneginin simgesel anlamı ve Türk paylaşım modeli. Karadeniz Araştırmaları, sayı 5 (Bahar-2005), s.39, s.39-40, s.40, s.41, s.50

4. Ali Yaman. Alevilikte ocak kavramı: Anlam ve tarihsel arka plan. Türk kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, sayısı 60, (2011), s.45.
5. Ahmet Turan. Törelerimizde "Kalın" (Başlık). Milli folklor. Uluslararası Kültür Araştırmaları Dergisi. 1989, sayısı 12, s.40
6. Erhan Aktaş. Hakas destanlarında evlilik kurumu ve buna bağlı bazı pratikler. Türk Dünyası 38, sayı 11,s.8, s.9, s.14, s.23, s.24, s.30, s.115- 116.
7. Ergun Candan. Türklərin kültür kökənləri. Sınır ötesi yayınları. Çağaloğlu/İstanbul.2008. VII baskı, s. 419, s.418, s.423
8. Emet Celil/Alilmcan İnayet. Doğu Türkistanda bir inanma: "Dokuz"un sırrı ve kara lampa dansı". Milli folklor. Uluslararası Kültür Araştırmaları Dergisi, sayı 17, s.40-41, s.42
9. Emel Celil. "Dokuz"un sırrı ve Kara Lamba Dansı". Milli folklor. Sayı 17, s.42
10. Faruk Çolak. Gerdek Pınarı. Gaziantep efsanesi üzerine bazı degerlendirmeler. TÜBAR-XXXII-/2012-Güz /s.48, s.49, s.50. s.51, s. 52, s.53, s.54
11. Feyzullah Karabataş. Rize ve çevresindeki yaygın halk inanışları. Fırat Universitesi Sosyal Bilimler Enstitüsü Felsefe ve Din Bilimleri Anabilim Dalı. Dinler Tarihi Bilim dalı. Elazığ – 2006, s.103, s.104
12. Geldiyev Gurbandurdu. Türkmenlerde "Düğün Türküleri" veya "Ölenler", "Yar-Yar", "Leeran" Geleneği Doğrultusunda. Halk Bilimi/Halk Kültürü. I. Uluslararası Atatürk ve Türk Halk Kültürü Sempozyumu Bildirileri. 2001.
13. Gamze Karaman ve Emine Nas. Çorum yöresi Alevi kültüründe geleneksel bir gelin başlığı: "Aleyçin". Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi . 2013, sayısı 67, s.155
14. Gürcü Selcan Sağlık. Türkmen dügün gelenegi. Modern Türklük Araşdırmaları Dergisi. Ankara -2006, cilt 3, sayı 2, s.72, s.73, s.78
15. *Hilal Palabıyık Güreci*. Türklerde başlık ve çeyiz. Yeditepe Universitesi. Türk Dünyası Kültürel Antropolojisi Dergisi Dönem Ödevi. İstanbul-2014, s.1, s.2, s.3.

16. Halil İbrahim Şahin. Türk destanlarındakı aile algısı üzerine bir degerlendirme. Karadeniz Araştırmaları • Bahar 2012 • Sayı 33 • 117-138, s.123, s.124, s.125, s.126, s.127

17. Mehmet Aça. Köken mitleri evlilik kurumunun ortaya çıkışını nasıl açıklıyordu? Motif Akademi Halkbilimi Dergisi, 2018, Cilt: 11, sayı 21, s.2-3.

18. Mehmet Aça. Köken mitleri evlilik kurumunun ortaya çıkışını nasıl açıklıyordu? Motif Akademi Halkbilimi Dergisi, 2018, Cilt: 11, sayı 21, s.2-3.

19. Mehmet Eroz –Ali Güler. Turk Ailesi - Scribd. Atatürk Yüksek Kurumu. Atatürk Kültür Merkezi Başkanlığı, 1998, s.3, s.17, s.32, s.33, s.65, s.66

20. Milli Folklor, 2G15, Yıl 27, Sayı 1G5. *s.116*

21. **N**. Nurgül Begiç ve Ceren Öz. Çankırı özel gün ritüellerindeki elmas taç gelenegi. Milli Folklor, 2018, yıl 30, sayı 118, s.118-119.

22. Öcal Oğuz. Kıprız manilerindeki Kıprız gerçekleri. Milli folklor. Uluslararası Kültür Araştırmaları Dergisi, sayısı 17, s. 22.

23. Sadettin Gömeç. Şamanizm ve eski Türk dini. Pamukkale Universitesi Egitim Fakültesi Dergisi. 1998, sayı 4, s.41

24. Serpil Gurer. XVII-XVIII ve XIX. Yüzyıllarda Fransız Seyahetnamelerinde Osmanlı Toplumu. Doktora Tezi. Ankara Universitesi Sosyal Bilimler Enstitüsü Batı Dilleri ve Edebiyatları (Fransız Dili ve Edebiyatı) AnaBilim Dalı. Ankara-2010, s. 195, s.196, s.484

25. Sibel Turhan Tuna. Türk Dünyasındaki Düğünlerde Koltuklama ve Kırmızı Kuşak Bağlama Geleneği. Bilig. Türk dünyası Sosyal Bilimler Dergisi. 2006, sayı 38, s.154, s.156.

26. Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi - e-Kitap. Özbek Halk edebiyatı. 14-15-16 ciltler.

27. Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi - e-Kitap. Karakalpak Halk edebiyatı. 23 cilt.

28. Uğur Özcan Murat Gökhan Dalyan. 19.yüzyılda Rumlarda ve Arnavutlarda Evlilik Müessesesinde Başlık Uygulamaları. History Studies. Volume 3/3 2011. s.319.

29. Uluslararası Türk Dünyası Kültür Araştırmaları Dergisi. Bahar 2015 - 1 (1). s.100, s.101

30. Yolçu M.A. "Balıkesir Yöresi manileri". Balıkesir-2011. Grafik-taşarım-baskı ve cild. Kend arşivi yayınları. İSBH 978 975 92746-4, s.127

31. Yolçu M.A. Kadın icraçılar bağlamında Balıkesir dügün törenlerinde mani icrası. Uludağ Universitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi. Yıl: 13, Sayı: 22, 2012/1. s.117, s. 118, s.119, s.120, s.125

32. Yolçu M.A. Türk aile tarihinde egzogami yasasının işlevleri. Uluslararası Türk Dünyası Kültür Araştırmaları Dergisi. Bahar 2015 - 1 (1) 88, s.97, s.97- 98, s.100.

33. Yolçu M.A. Manilerde doldurma dize problemleri ve dizeler arasındakı anlamsal bağı sağlayan unsurları sınıflandırma denemesi. Turkish Studies, pp.2779-2793, 20122012, p.2779-2793, s.2790, s.2786.

**34.** Yolçu M.A. "Balıkesir Yöresi manileri". Balıkesir-2011. Grafik-taşarım-baskı və cild. Kend arşivi yayınları.İSBH 978 975 92746-4-1 s.112, s.127

35. Yılmaz Yeşil. Türk Dünyasında geçiş dönemi ritüelleri üzerine tespitler. DergiPark/ 21. Yüzyılda Egitim ve Toplum Egitim Bilimleri ve Sosyal Araştırmaları Dergisi. III cild, sayısı 9. Kış. 2014**.** s.126

36.http://ekitap.kulturturizm.gov.tr/TR,78479/turkiye-disindaki-turk-edebiyatlari-antolojisi.html

37. http://www.hbvdergisi.gazi.edu.tr/index.php/TKHBVD/article/viewFile/915/904

38. http://www.tdk.gov.tr/images/1998_05_19_Kenin-Lopsan.pdf

39.https://www.tarihtarih.com/?Syf=26&Syz=358008&/T%C3%BCrkmenistanda-Destan-D%C3%BCnyas%C4

40. https://dugun.com/en-cok-okunanlar/ilginc-dugun-gelenekleri-124

41. https://www.nevzattarhan.com/evlilikte.html .

42.*https://media.turuz.com/Turkologi/Tarix/2011/216-Xan_Orba-Xakas_Qahramanliq_Dasdani_(Erhan_Aktash)*

43. http://reldem.net/rengaz.html

44. https://www.tarihtarih.com/?Syf=26&Syz=364828&/K%C4%B1p%C3%A7aklarda-Sosyo-K%C3%BClt%

45. http://www.burclar.net/9-sayisinin-anlami/

46. http://www.usdusunveotesi.net/yazilar2.asp?yno=50&bant=4&katno=4